RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 181 (8497) ÇƏRŞƏNBƏ, 9 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin milli maraqlara söykənən qətiyyət nümayişi

## Prezident istənilən dövlət başçısı, istənilən diplomatla müzakirələrdə xalqı narahat edən bütün məsələləri qaldırır, həqiqətləri səsləndirir

Tarixin bütün dövrlərində hər bir dövlətin yüksəlişində siyasi liderlərin çox böyük rolu olub. Dövlət idarəçiliyində yüksək səriştə, milli maraqların hər şeydən üstün tutulması, qətiyyətlilik və prinsipiallıq liderlərin fəaliyyətinin ana xəttini təşkil edib.

Son 17 ildə dövlət başçısı kimi daim milli maraqlar naminə tam müstəqil siyasət yürüdən, hər zaman güclü diplomat keyfiyyətləri ilə beynəlxalq nüfuzunu yüksəldən, qətiyyəti, prinsipiallığı, humanizm prinsiplərinə sadiqliyi ilə xalqın alternativsiz liderinə çevrilən cənab İlham Əliyev də belə siyasətçilərdəndir. Məhz İlham Əliyevin yürütdüyü müstəqil siyasət və yeni inkişaf konsepsiyası əsasında həyata keçirdiyi islahatlarla Azərbaycan iqtisadi baxımdan özünü tamamilə təmin edən və heç bir çətinliyi olmayan ölkəyə çevrilib. Dünyanı çənginə almış pandemiya ilə mübarizə dövründə, qlobal böhranın davam etdiyi zamanda Azərbaycan Prezidentinin ortaya qoyduğu qətiyyət, günümüzün reallıqları bunu bir daha təsdiqləyir.

### Öz gücünə, iqtisadi qüdrətinə arxalanan ölkə

Bu gün dünyada olduqca gərgin, ziddiyyətli və qarışıq proseslərin getdiyi, qlobal trendlərdə qeyri-müəyyənliyin hökm sürdüyü mərhələdə cənab İlham Əliyev həm müstəqil siyasətini davam etdirir, həm də dövlətin böhrandan az itki ilə çıxması üçün bütün imkanları səfərbər edir. Elə bunun nəticəsidir ki, Azərbaycan pandemiya ilə mübarizədə müsbət dinamika əldə edən ölkələr sırasındadır.

Prezidentin həyata keçirdiyi iqtisadi islahatlardan əldə edilən dividendlər isə qlobal böhranın ölkə iqtisadiyyatının ciddi tənəzzülə uğramasının qarşısını almaqdadır. Digər ölkələrlə müqayisədə Azərbaycan iqtisadiyyatının 7 ayda cəmi 2,8 faiz azalması bu reallığı əks etdirir. Məhz bu durum Azərbaycanın postpandemiya dövrü üçün yeni iqtisadi yüksəliş proqramlarının hazrlanmasına əlverişli zəmin yaradır.

Əlbəttə ki, bütün bunlar Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir. Dövlət qlobal böhran dövründə heç bir ölkədən, maliyyə qurumundan dəstək almadan həm xalqın sağlamlığının qorunması, həm də sosial durumunun yaxşılaşdırılması istiqamətində öz gücünə tədbirlər görür. Hətta ehtiyacı olan ölkələrə dəstəyini əsirgəmir, Ümumdünya Səhiyyə Təşkilatına koronavirusla mübarizə tədbirlərinin gerçəkləşdirilməsi üçün ianə verir.

Cənab İlham Əliyevin həyata keçirdiyi bu siyasət beynəlxalq səviyyədə təqdir edilir. BMT, ÜST, Qoşulmama Hərəkatı və Türk Şurasının, İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətləri Azərbaycan Prezidentinin qətiyyətli, humanizm prinsiplərinə əsaslanan siyasətini nümunəvi addım kimi dəyərləndirirlər.

### Milli maraqların müdafiəçisi, liderlik örnəyi

Azərbaycan Prezidentinin böhran şəraitində həyata keçirdiyi siyasət bununla yekunlaşmır. Bütün dövrlərdə olduğu kimi, Azərbaycanın milli maraqlarına təsir edən hər bir məsələni xüsusi nəzarətində saxlayan, bununla əlaqədar istənilən ölkə, istənilən beynəlxalq qurum qarşısında məsələ qaldıran və onların həllinə nail olan, milli maraqları qətiyyətlə, xüsusi prinsipiallıqla müdafiə edən cənab İlham Əliyev siyasətinə həmişə sadiqlik nümayiş etdirir. Ölkə ictimaiyyəti İlham Əliyevin milli maraqlar naminə ciddi addımlar atdığına və istənilən dövlət başçısı ilə müzakirələrdə Azərbaycan üçün ümdə sayılan məsələləri qaldırmaqdan qətiyyən çəkinmədiyinə daim şahidlik edir. Bu da, əlbəttə ki, hər kəsdə fəxarət hissi yaradır.

Ardı 3-cü səh.

# Tacikistan Respublikasının Prezidenti zati-aliləri cənab Emoməli Rəhmona

Hörmətli Emoməli Şərifoviç!

Ölkənizin milli bayramı - Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Biz dost Tacikistanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlarına və beynəlxalq arenada nüfuzunun artmasına sevinirik.

Ölkələrimizi ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan ikitərəfli əlaqələrimiz xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Dünyanın üzləşdiyi COVID-19 pandemiyası ilə mübarizədə Azərbaycan xalqının dost Tacikistan xalqı ilə həmrəy olduğunu vurğulamaq istəyirəm.

Hörmətli Emoməli Şərifoviç, belə bir xoş gündə Sizə ən xoş arzularımı yetirir, Tacikistan Respublikasına əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2020-ci il*



# "Made in Azerbaijan" brendi pandemiya şəraitində də nüfuzunu artırır

FAO 6 avqust 2020-ci il tarixli açıqlamasında göstərir ki, Qlobal Ərzaq Qiyməti İndeksi 2020-ci ilin iyul ayında orta hesabla 94,2 bənd təşkil edərək əvvəlki ayla müqayisədə 1,2 faiz (1,1 bənd) çox, ötən ilin iyul ayı ilə müqayisədə isə 0,9 faiz (0,9 bənd) azdır. Vəziyyəti daha aydın təsəvvür etmək üçün bəzi rəqəmləri nəzərdən keçirək.

2020-ci ilin ikinci rübündə dünya bazarında düyünün 1 tonunun qiyməti kəskin şəkildə artaraq 514,9 dollara çatsa da, bu ilin iyulunda əvvəlki ay ilə müqayisədə 7,87 faiz azalaraq 463,4 dollar səviyyəsində qərarlaşmışdır.

Ardı 6-cı səh.

◆ Yeni dərs ili qarşısında

# Təhsil strateji hədəfimizdir

Təhsil tarixin bütün dövrlərində cəmiyyət həyatı üçün böyük əhəmiyyət kəsb edib. İndiki mərhələdə isə heç bir zamanda olmadığı qədər müstəsnalıq daşıyır. Gələcəkdə, şübhəsiz ki, təhsilin rolu, əhəmiyyəti daha da artacaq. Bu da təsadüfi deyil. İnsanların həyat şəraitinin yaxşılaşdırılmasının və dayanıqlı inkişafın ilkin şərti məhz keyfiyyətli təhsildir. Daim tərəqqi edən iri dövlətləri bu gün qərar tutduqları səviyyəyə gətirib çıxaran təbii resurslarla yanaşı, məhz bilik, savad, nüfuzlu ali məktəblər və elmin inkişafıdır.

### Sabahımızın qarantı

Vətəndaşlarımızın rifahı üçün ardıcıl layihələr reallaşdıran Azərbaycan dövlətinin təhsil sahəsində həyata keçirdiyi genişmiqyaslı tədbirlərin əsas məramı da dünyanın yeni çağırışlarına uyğunlaşmaq, cəmiyyətimizi bu günün və gələcəyin inkişaf meyillərinə hazırlamaqdır.

Müasir dövrdə bilik və bacarıqların əldə olunmasının daim təkmilləşdirilməsinin ölkə üçün də, ayrı-ayrı fərdlər üçün də nə qədər böyük önəm daşıdığını Prezident İlham Əliyev öz nitqlərində zaman-zaman vurğulayır. Ötən ilin noyabrında Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışı zamanı dövlət rəhbərimizin qeyd etdiyi fikirlər hər bir vətəndaşımız üçün gələcəyə doğru aydın yol bələdçisidir. Prezident İlham Əliyev deyir: "Bilik olmalıdır. Çünki indi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır. Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da. Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik". Daha sonra xüsusi vurğulanmışdır ki, gərək imkan yaradaq bizim vətəndaşlara həmin peşələrə yiyələnsinlər: "Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur".

Bütün bunlar sadəcə bəyanat, cəmiyyət üzvlərinə verilən tövsiyələr deyil, dövlətin həyata keçirdiyi inkişaf siyasətinin ana xəttidir.

Ardı 4-cü səh.

# Hasilat ahəngdar, gəlirlər sanballıdır

## AÇG və "Şahdəniz" ölkə iqtisadiyyatına töhfələrini davam etdirir

Bu il yanvarın 1-dən sentyabrın 1-dək "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından 2 milyard 657 milyon ABŞ dolları həcmində gəlir əldə olunub. Həmin dövrdə "Şahdəniz" yatağı üzrə qaz və kondensat satışından gəlirlər 232 milyon dollar təşkil edib.

Bu ilin səkkiz ayı ərzində "Şahdəniz" kondensatının satışından 166 milyon dollar vəsait daxil olub. Bu barədə məlumatı Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) verib.

Ardı 4-cü səh.

# Ermənistan Qarabağda yeni təxribat hazırlayır

## Paşinyan beynəlxalq hüququn norma və prinsiplərini tapdalayır

Bu gün Ermənistan ən yüksək siyasi səviyyədə əsl niyyətinin münaqişənin danışıqlar vasitəsilə həlli deyil, Azərbaycan ərazilərinin qanunsuz işğalının davam etdirilməsi olduğunu nümayiş etdirməkdədir.

Son aylar Ermənistan tərəfinin cəbhədə törətdiyi təxribatlar işğalçı ölkənin nəinki danışıqlar aparmağa, tam əksinə, hər vəchlə vəziyyəti yenidən gərginləşdirməyə çalışdığından xəbər verir. Ermənistanda iki il bundan öncə hakimiyyət dəyişikliyindən sonra iqtidara gələn yeni qüvvələrin də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sərgilədikləri mövqe təkcə Azərbaycanda yox, həm də beynəlxalq ictimaiyyətdə ciddi narazılıq yaratmaqdadır.

Ardı 4-cü səh.

# Gələcək uğurlara hədəflənən düzgün strategiya

## Ölkəmizdə pandemiya şəraitində təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı suallar artıq öz cavabını tapıb

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edilən COVID-19 infeksiyası Yer üzündə yoluxma hallarının sayını sürətlə artırmaqda davam edir. Koronavirus sərt karantin rejimi sayəsində ölkələrdə əldə olunan müsbət nəticələri yumşalma tədbirlərindən sonra ani bir həmləsi ilə darmadağın edir, ikinci, üçüncü dalğaları meydana çıxararaq yenidən insanlığın təhdidinə çevrilir.



Azərbaycan COVID-19-a qarşı hərtərəfli mübarizəni davam etdirir. Pandemiyanın respublikamıza təsirini minimuma endirmək üçün bütün mümkün variantlardan istifadə edilir. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən zəruri və qabaqlayıcı tədbirlər insanlarımızın sağlamlığına və etibarlı müdafiəsinə hesablanıb. Gecə-gündüz sistemli şəkildə həyata keçirilən tədbirlər planı sayəsində hədəflənən müsbət nəticələrə nail olunub.

Təkcə onu vurğulamaq yerinə düşər ki, qısa zamanda səhiyyə sistemimizin pandemiya ilə mübarizəyə istiqamətləndirilməsinin uğur əldə edilməsində müstəsna əhəmiyyəti oldu. 600 yerlik "Yeni klinika"nın açılması, 11 modul tipli xəstəxananın inşa edilməsi və bu xəstəxanalarda kifayət qədər çarpayı sayının olması qısa müddətdə ərsəyə gələn müsbət nəticələrdir ki, elə bunun sayəsində virusa yoluxan 34 mindən çox vətəndaşımız müalicə olunaraq sağalıb.

### COVID-lə mübarizədə uğurlu Azərbaycan modeli

Azərbaycanın pandemiya ilə mübarizədə özünəməxsus model ortaya qoyması koronavirusa yoluxma hallarının sayının azalmasında da əhəmiyyətli rol oynayıb.

Ardı 6-cı səh.

# "Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 fevral tarixli 1792 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 fevral tarixli 1792 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 312; 2018, № 6, maddə 1297; 2019, № 9, maddə 1487) 1-ci hissəsi ilə təsdiq edilmiş komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| **"Komissiyanın sədri** | | |
| Samir Nuriyev | - | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri |
| **Komissiyanın üzvləri** | | |
| Fuad Ələsgərov | - | Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri |
| Gündüz Kərimov | - | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi |
| Fikrət Məmmədov | - | Azərbaycan Respublikasının Ədliyyə naziri |
| Vilayət Eyvazov | - | Azərbaycan Respublikasının Daxili İşlər naziri |
| Əli Nağıyev | - | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi |
| Allahşükür Paşazadə | - | Şeyxülislam, Qafqaz Müsəlmanları İdarəsinin sədri |
| Əhliman Əmiraslanov | - | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Səhiyyə komitəsinin sədri |
| Zahid Oruc | - | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, İnsan hüquqları komitəsinin sədri |
| Fazil Mustafa | - | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Mədəniyyət komitəsi sədrinin müavini |
| Azay Quliyev | - | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| Sədaqət Vəliyeva | - | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| Aynur Sofiyeva | - | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini |
| Rəşad Məcidov | - | Azərbaycan Yazıçılar Birliyinin katibi, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü |
| Əliməmməd Nuriyev | - | "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri |
| Bəyimxanım Verdiyeva | - | "Xan Şuşinski" Fondunun rəhbəri |
| Mehriban Vəliyeva | - | Akademik Zərifə Əliyeva adına liseyin direktoru |
| **Komissiyanın katibi** | | |
| Kəmalə İsmayılova | - | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektorunun müdiri". |

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2020-ci il*

# Y.Ə.Əliyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında milli dövlət quruculuğu işində xüsusi xidmətlərinə görə Yaşar Ədilxan oğlu Əliyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2020-ci il*

# Azərbaycanın Xarici İşlər naziri Türk Şurasının Baş katibi ilə görüşüb

Sentyabrın 8-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Nazir Ceyhun Bayramov Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətindən, təşkilat çərçivəsində iştirakçı ölkələrin sayının artımından, təşkilatın sonuncu zirvə görüşünün Bakıda uğurla həyata keçirilməsi və əldə olunmuş nəticələrdən, eləcə də Azərbaycanın Türk Şurası ilə əməkdaşlığından məmnunluqla danışıb. Türk Şurasının beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı və beynəlxalq platformalarda təşkilatın statusu məsələsi qeyd olunub.

Nazir Türk Şurasının Azərbaycanın təhlükəsizliyinə əsas təhdid olan Ermənistanın təcavüzkar siyasəti ilə bağlı beynəlxalq hüququn norma və prinsipləri, başda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri olmaqla, digər beynəlxalq təşkilatların qərarlarına əsaslanan prinsipial mövqeyini vurğulayaraq, bu xüsusda Baş katibə təşəkkürünü bildirib.

Bağdad Amreyev Azərbaycanın Türk Şurasında iştirakını və rolunu yüksək qiymətləndirib. Sonuncu Bakı Zirvə görüşünün təşkilatın fəaliyyətində keyfiyyətcə yeni bir mərhələ olduğunu qeyd edən Baş katib hazırda təşkilat çərçivəsində geniş spektrli məsələlər üzrə daha sıx əməkdaşlıq və inteqrasiyanın həyata keçirilməsi istiqamətində addımların atıldığını bildirib. Azərbaycanı Türk Şurasına uğurlu sədrliyi münasibətilə təbrik edən, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə həyata keçirilən və pandemiya ilə mübarizəyə həsr olunan videogörüş formatlı Zirvə Görüşü, eləcə də digər istiqamətlər üzrə həyata keçirilən videogörüşlərdən məmnunluqla bəhs edən Bağdad Amreyev Azərbaycanın növbəti sədrliyədək təşkilata rəhbərliyi müvəffəqiyyətlə davam etdirəcəyindən əminlik ifadə edib. Türk Şurasının Azərbaycanın ədalətli və beynəlxalq hüquqa əsaslanan mövqeyini hər zaman dəstəklədiyi qeyd olunub.

Görüş zamanı tərəflər, habelə Türk Şurası çərçivəsində geniş sahələr üzrə həyata keçirilən əməkdaşlıq gündəliyi üzrə, növbəti zirvə görüşünün təşkilinə dair, eləcə də təşkilatın gələcək inkişafı yolları ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan ilə Polşa arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Sentyabrın 8-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Polşanın ölkəmizdəki səfiri Rafal Poborski ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov ölkələrimiz arasında mövcud olan yüksəksəviyyəli əməkdaşlıq münasibətlərindən bəhs edib, bu xüsusda ali səviyyədə həyata keçirilən səfər mübadilələrinin əməkdaşlığın inkişafına təkan verdiyini bildirib.



Cari ildə dünyanın üzləşdiyi pandemiyaya rəğmən ölkələrimiz arasında əməkdaşlığın davam etdirildiyini vurğulayan nazir bu xüsusda Polşa tərəfindən Azərbaycana COVID-19 ilə mübarizə çərçivəsində göstərilən humanitar yardıma görə minnətdarlığını ifadə edib.

Səfir Rafal Poborski öz növbəsində Polşanın Xarici İşlər naziri Zbiqnev Raunun səmimi təbriklərini nazir Ceyhun Bayramova çatdırıb. Diplomat ölkələrimiz arasında münasibətlərin inkişaf dinamikasının davam etdirilməsinin vacibliyini vurğulayıb.

Tərəflər Azərbaycan ilə Polşa arasında siyasi məsləhətləşmələrin davam etdirilməsi, eləcə də enerji, nəqliyyat, kənd təsərrüfatı, təhsil, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxındır davam edən işğalçılıq siyasəti, təcavüzkar ölkənin işğal etdiyi ərazilərdə həyata keçirdiyi qeyri-qanuni fəaliyyəti, Ermənistan silahlı qüvvələrinin iyulun 12-16-da iki ölkə sərhədində törətdiyi hərbi təxribatı, eləcə də Ermənistan rəhbərliyinin bölgədə gərginliyin artmasına xidmət edən və münaqişənin danışıqlar yolu ilə həllinə xələl gətirən fəaliyyəti barədə qarşı tərəfə ətraflı məlumat verib.

Səfir Rafal Poborski Polşanın Şərq Qonşuluğu ölkələrində sabitliyin təmin edilməsində maraqlı olduğunu deyib və ölkəsi üçün beynəlxalq hüquqa hörmət prinsipinin vacibliyini diqqətə çatdırıb.

Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Sahibə Qafarova Milli Məclisin Sədri kimi ilk rəsmi səfərini Türkiyəyə edəcək

Sentyabrın 10-da Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti ilk rəsmi səfərini Türkiyə Respublikasına edəcək. Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.



Nümayəndə heyətinin tərkibinə Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, komitə sədri Ziyafət Əsgərov, deputatlardan Sevil Mikayılova, Fazil Mustafa, Elşən Musayev, Tural Gəncəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Səfər zamanı nümayəndə heyətinin üzvləri Türkiyə Böyük Millət Məclisində parlamentin fəaliyyəti, qanun yaradıcılığı prosesi ilə yaxından tanış olacaq, türkiyəli həmkarları ilə fikir mübadiləsi aparacaqlar.

Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopla görüşəcək. Görüşdə parlamentlərarası əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri, ikitərəfli əməkdaşlığımızın daha da genişləndirilməsi, hər iki ölkənin birgə həyata keçirdiyi qlobal layihələrin reallaşması, regional münaqişələrin həlli yolları parlament müstəvisində müzakirə ediləcək.

Milli Məclisin Sədri Sahibə Qafarovanın Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla və digər rəsmi şəxslərlə görüşləri nəzərdə tutulub.

Səfər müddətində Milli Məclis Sədrinin başçılıq etdiyi parlament nümayəndə heyəti Ankarada Anıtqəbri ziyarət edəcək, şəhərin tarixi yerləri ilə tanış olacaq.

Səfər sentyabrın 12-də başa çatacaq.

# Prezidentin köməkçisi Hikmət Hacıyev İstanbulda fəaliyyət göstərən beynəlxalq media nümayəndələri ilə görüşüb



Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.

AZƏRTAC xəbər verir ki, sentyabrın 8-də Azərbaycan nümayəndə heyətinin rəhbəri Hikmət Hacıyev İstanbulda fəaliyyət göstərən beynəlxalq media qurumlarının nümayəndələri ilə görüşərək müzakirələr aparıb.

Prezidentin köməkçisi özünün "Twitter" səhifəsində görüşlə bağlı yazıb: "İstanbulda fəaliyyət göstərən beynəlxalq media nümayəndələri ilə görüşmək və açıq dialoq aparmaq çox xoş idi. Ermənistan-Azərbaycan münaqişəsi, regional və beynəlxalq mövzularda geniş müzakirələr apardıq".

Keçirilən görüşlərin əhəmiyyətini vurğulayan Hikmət Hacıyev deyib ki, biz media sahəsinin müxtəlif istiqamətləri üzrə ətraflı müzakirələr apardıq. Düşünürük ki, əməkdaşlıq üçün böyük potensial vardır. Türkiyə son dövrlərdə sənədli və bədii filmlərin hazırlanması sahəsində böyük təcrübə qazanıb. Türkiyə televiziyaları istər texnologiya, istərsə də kontent yaradılması baxımından yaxşı imkanlara malikdir. Bu xüsusda əməkdaşlıq üçün geniş imkanlar və böyük resurslar vardır.

Qeyd edək ki, üç gün davam edən səfər sentyabrın 8-də başa çatacaq.

Xatırladaq ki, Azərbaycan nümayəndə heyətinin Türkiyəyə səfərinin əsas məqsədi ölkələrimiz arasında birgə media platforması yaratmaq, xəbər, mütəxəssis və fikir mübadiləsini həyata keçirmək, o cümlədən hər iki ölkənin sosial media vasitəsilə dünyada daha yaxından tanıdılması işini daha da fəallaşdırmaqdır.

Nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin informasiya təminatı sektorunun rəhbəri Fərhad Əmirbəyov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanov, Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Əhməd İsmayılov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov, İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru Balakişi Qasımov daxildirlər.

# Azərbaycan-Türkiyə münasibətləri ən yüksək səviyyədə inkişaf edir

İkili standart prinsipini tez-tez eşidirik, əslində isə məsələnin mahiyyəti odur ki, mövqe heç vaxt dəqiq olmur. Belə demək mümkündürsə, hər iki tərəflə uzlaşmağa getməyin əsas simvoludur.



Bu gün ölkəmiz ikili standart mövqeyindən tam kənardadır və bu siyasəti heç cür qəbul etmir. Məsələn, deyirik ki, Türkiyə bizim qardaşımız və dostumuzdur, Ulu Öndər Heydər Əliyev dediyi kimi, biz bir millət, iki dövlətik. Bu, dünən də belə idi, bu gün də belədir və təbii ki, sabah da belə olacaq. Mövqeyimiz vahiddir, bunu kimlərəsə xoş gəlmək üçün gizlətmirik. Aydın şəkildə bütün dünyaya bəyan edirik ki, Türkiyənin dostlarını dostlarımız, düşmənlərini isə düşmənlərimiz olaraq qəbul edirik. Vahid siyasətimizin ana xəttində hər iki ölkənin maraqlarının birgə müdafiəsi öz əksini tapır, vahid dilimizin, vahid millətimizin olmasına baxmayaraq, hər bir dövlət - istər Azərbaycan, istər Türkiyə öz müstəqil siyasətini həyata keçirir. Lakin söhbət hansısa maraqların kəsişməsindən gedirsə, birlikdə vahid siyasət həyata keçiririk.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev söyləyib.

Adil Əliyev deyib: "Hazırda ölkəmizlə qardaş Türkiyənin münasibətləri bugünə qədər olmayan səviyyədədir, yəni tarixin heç bir mərhələsində hər iki dövlət bir-birinə bu qədər yaxın olmayıb. Məmnuniyyətlə deyə bilərik ki, hər iki ölkənin başçısı bir-birlərini təkcə dost olaraq görmür, eyni zamanda, qardaş olduqlarını hər dəfə bəyan edirlər. Bu dostluq və qardaşlıq təbii ki, bir çox ölkələri narahat edir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, buna təkcə digər xarici dövlətlər deyil, din və millət ortaqlığımız olan dövlətlərin bu cür qısqanması heç cür xoşagələn deyil.

Vahid dəyərlərə malik olmağımıza gəldikdə isə, bütün türk xalqlarının ortaq mirası olan "Kitabi-Dədə Qorqud" dastanında çox bəyəndiyim bir fikir var. Hər dəfə qeyd olunur ki, düşmənə qarşı Oğuz igidləri aralarında incikliyin olub-olmamasından asılı olmayaraq, birləşirdilər. Bizdə isə bu incikliyin olmamasına baxmayaraq, biz düşmənə deyil, düşmənlərə qarşı kifayət qədər birləşmişik.

Xüsusilə qeyd etmək yerinə düşər ki, bütün məsələlərdə olduğu kimi, 12 iyul tarixində Ermənistan tərəfinin cəbhənin Tovuz rayonunda törətdiyi təxribat zamanı ilk dəstək nümayiş etdirən ölkə yenə Türkiyə oldu.

Biz Türkiyə ilə qardaş olmaqla yanaşı, oxşar talelərə malikik. Belə ki, hər iki ölkə hazırda terrorizmdən əziyyət çəkir. Bu gün torpaqlarımızın faktiki olaraq 20 faizi işğal altındadır, işğal edilmiş ərazilərdən hansısa məqsədlə istifadə edildiyi bu gün dünya ictimaiyyətinə məlumdur. Çox təəssüf hissi ilə qeyd etməliyik ki, ölkəmizin ərazisinin işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin heç biri bu gün də Ermənistan tərəfindən icra edilməyib. Ermənistan tərəfinin beynəlxalq hüququ kobud şəkildə pozması və bundan sonra törətməyə cəhd etdiyi təxribatlar bu münaqişənin dinc yolla həllini istisna edir.

Ermənistanın törətdiyi təxribatların davamı olaraq, Azərbaycan sərhədini keçərkən yaxalanmış Ermənistan ordusuna məxsus olan zabit də öz açıqlamasında rəhbərlik etdiyi dəstə ilə birlikdə sərhədi keçmək istədiklərini, məqsədlərinin isə hərbi və mülkü şəxsləri öldürmək olduğunu bildirdi.

Bu gün ordumuz nəinki Cənubi Qafqazın, həmçinin dünyanın ən güclü ordularından biridir. Ordumuz tam müasir silah və sursatla təmin edilib, maddi texniki bazası gücləndirilib. Habelə "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında" 2020-ci il fevralın 25-də Bakı şəhərində imzalanmış sazişə əsasən iki ölkə arasında keçirilən hərbi təlimlər ordumuzun potensialının daha da artırılmasına yönəlmişdir.

Türkiyə ilə təlimlər həm də ona görə vacibdir ki, bu gün hərbi sahədə ən güclü qurum NATO-dur və təbii ki, həmin qurumda aparıcı ölkə Türkiyədir. Bu sahədə olan yaxınlaşma Azərbaycan Silahlı Qüvvələrinin müasirləşdirilməsinə kömək göstərir.

Habelə ölkəmizin təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələr hərbi əməkdaşlıq baxımından gələcəyə müsbət vədlər verir. Bizim önəm verdiyimiz məsələlərin içərisində hərbi kadrların hazırlanması xüsusi yer tutur. Bu sahədə də təbii ki, Türkiyə təcrübəsi bizim üçün çox yerində və lazımlıdır.

Təbii ki, əməkdaşlığımızın fonunda Türkiyənin bizə göstərdiyi qardaşlığa da biz öz növbəmizdə yerində və vaxtında qarşılıq verməliydik, verdik də. Belə ki, hazırda Aralıq dənizində baş verən hadisələr tərəfimizdən diqqətlə izlənir və Yunanıstan tərəfinin eynilə Ermənistan kimi qərəzli mövqeyi bizdə təəssüf hissi doğurur. Biz isə baş verənlərə, sadəcə, izləyici kimi qalmırıq, qətiyyətli mövqeyimizi göstərərək Türkiyənin yanında olduğumuzu hər an bütün dünyaya çatdırırıq. Prezident İlham Əliyevin Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş səfirinə qeyd olunan mövqeyin çatdırılması və Türkiyənin yanında olduğumuzu bildirməsi təkcə Yunanıstan tərəfinə deyil, bütün dünyaya açıq mesaj idi. Dünyanın türkün gücünü bir daha görməsinin vaxtı çatıb".

# İlham Əliyevin milli maraqlara söykənən qətiyyət nümayişi

## Prezident istənilən dövlət başçısı, istənilən diplomatla müzakirələrdə xalqı narahat edən bütün məsələləri qaldırır, həqiqətləri səsləndirir



*Əvvəli 1-ci səh.*

Son bir neçə ayda Prezidentin bu istiqamətdəki prinsipial mövqeyi, qətiyyətli addımları, diplomatik bacarığı beynəlxalq birliyə növbəti mesaj oldu. Hər kəs bir daha əmin oldu ki, İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll istiqamətində irəli sürdüyü prinsiplər dəyişməyəcək.

Avqustun 12-də Pusiya Prezidenti Vladimir Putinlə telefon danışığı, sentyabrın 2-də Yunanıstanın, sentyabrın 7-də isə İran İslam Respublikasının ölkəmizə təyin etdikləri yeni səfirlərin etimadnaməsini qəbul edərkən İlham Əliyevin səsləndirdiyi həqiqətlər, qətiyyətli fikirlər də deyilənləri təsdiqləyir.

Öncə Prezident münaqişənin həllində vasitəçilik missiyası həyata keçirən ölkənin işğalçı Ermənistanı silahlandırmasına ciddi etirazını bildirərək xalqın haqlı narazılığını rusiyalı həmkarının diqqətinə çatdırdı. Eyni zamanda Rusiyadan çıxarılan hərbi yüklərin öz ölkələrinin hava məkanından daşınmasına razılıq verən tərəfdaş ölkələrə mesaj verdi - Azərbaycan hər şeydən xəbərdardır.

Yunanıstanın ölkəmizə yeni təyin olunmuş səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən isə cənab İlham Əliyev həm iki ölkə münasibətlərinin dünəni, bu günü və faktiki tam dayanmış hala qədər keçdiyi yola dair bütün məqamlara aydınlıq gətirdi, həm də Azərbaycanın tərəddüd etmədən hər zaman Türkiyənin yanında olduğunu bəyan etdi.

İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş yeni elçisi Seyid Abbas Musəvi ilə görüşdə isə İlham Əliyev terrorçu Ermənistanın İslam dininə qarşı həyata keçirdiyi vandallıqları səfirin diqqətinə çatdırdı. Prezident dedi ki, ermənilər Azərbaycana məxsus tarixi-dini abidələri dağıdıb, dini abidələri təhqir ediblər. İşğal edilmiş ərazilərdə məscidlər ermənilər tərəfindən dağıdılıb və bəzi məscidlərdə hətta onlar heyvan saxlayırlar. Bu çirkin əməlləri əks etdirən bir çox video və foto sənədlər, sübutlar var.

Təbii ki, bu, təkcə Azərbaycana qarşı yox, bütün müsəlman dünyasına qarşı edilən cinayətdir və bəzi tərəfdaş dövlətlərin terrorçu, faşist xislətli Ermənistana dəstək olması Azərbaycan xalqında haqlı narazılıqlar yaradır.

Ancaq hər zaman olduğu kimi, Azərbaycan İslam həmrəyliyinin möhkəmləndirilməsi işinə öz töhfəsini verir və böyük səylər göstərir. Prezident də bəyan etdi ki, Azərbaycan islam aləminin birləşməsi və bəzi ölkələr arasında mövcud olan problemlərin həlli istiqamətində hər zaman öz əlavə səylərini göstərməyə hazırdır.

Bütün bunlar təsdiq edir ki, cənab İlham Əliyev milli maraqlar naminə ciddi addımlar atır və istənilən dövlət başçısı, istənilən diplomatla müzakirələrdə Azərbaycan üçün ümdə sayılan məsələləri qaldırmaqdan qətiyyən çəkinmir.

### Hər zaman ön cərgədə

Həm ölkə daxilində gedən proseslər, həm də Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxformatlı əlaqələrinin daim genişlənməsi deməyə əsas verir ki, cənab İlham Əliyevin indiyədək apardığı və bu gün də davam etdirdiyi siyasi kurs düzgün istiqamətdədir. Son 17 il ərzində görülən işlərin miqyası, Azərbaycanın dinamik və hərtərəfli tərəqqisi naminə qəbul edilən və uğurla həyata keçirilən qlobal dövlət proqramları, onların real nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini daha da möhkəmləndirməsi bu həqiqəti bir daha təsdiqləyir.

Bu gün Azərbaycan bölgədə təhlükəsizlik və davamlı iqtisadi imkanlara malik ölkə kimi çıxış edir. Rəsmi Bakının siyasi iradəsi, təşəbbüskarlığı, ölkəmizin iqtisadi gücü təkcə Azərbaycan üçün yox, region üçün tənzimləyici və lokomotiv funksiyasını yerinə yetirir. Məhz bu siyasi kurs Azərbaycanı dünyada etibarlı tərəfdaşa çevirib.

Azərbaycanın son illərdə beynəlxalq imicinin yüksəlməsi, respublikamızın ən ali səviyyəli tədbirlərdə ön cərgədə iştirakı, qlobal miqyasda ölkəmizin rəyi ilə hesablaşılması və digər belə qürurverici olaylar, əlbəttə ki, hansısa təbii proseslərin nəticəsi deyil. Bu nailiyyətlər birbaşa olaraq cənab İlham Əliyevin nümayiş etdirdiyi əzmkarlığın, rəhbərlik qabiliyyətinin, yüksək diplomatik bacarığının, qətiyyətli siyasətinin məntiqi nəticəsidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri daha da möhkəmlənir

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazandığımız uğurların ən mühüm istiqamətlərindən biri Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin inkişafının davamlılığının qorunmasıdır. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi keçmişi var və bu münasibətlər gündən-günə inkişaf edir, bununla da hər iki ölkənin güclü irəliləyişinə təkan verir.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞ PA-da nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib.

Səməd Seyidov deyib ki, müasir dövrdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş qardaşlıq əlaqələri son dövrdə daha yüksək templə inkişaf etməkdədir. Azərbaycan-Türkiyə münasibətləri Milli Məclisdə də hər zaman xüsusi olaraq qiymətləndirilib. Bununla bağlı çoxlu nümunələr var. Ən son misallar kimi mütəmadi xarakter daşıyan ikitərəfli və üçtərəfli görüşlərin keçirilməsini, qarşılıqlı olaraq vizadan azad-etməni, Preferensial Ticarət Sazişini, hərbi maliyyə əməkdaşlığını və paradları, təhlükəsizlik üzrə əməkdaşlığı və s. qeyd etmək olar.

Bir sözlə, bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan-Türkiyə münasibətləri dayanmadan inkişaf edir, əməkdaşlığın yüksək səviyyəsi hərtərəfli əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir. Qardaş ölkələr arasında müxtəlif istiqamətlərdə əməkdaşlıq daha da genişlənir və artıq yeni pilləyə keçir, ilk növbədə, hər iki ölkənin artıq güclü olan əlaqələrinin daha da möhkəmlənməsinə xidmət göstərir. Mühüm bir nümunəni qeyd edim. Prezident İlham Əliyev Yunanıstanın Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolas Piperiqkosu qəbul edərkən Türkiyə və Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda baş verən gərginliyə toxunub. Dövlət başçısı Türkiyənin Azərbaycana təkcə dost və tərəfdaş deyil, həm də qardaş ölkə olduğunu vurğulayıb və bütün məsələlərdə Türkiyənin yanında olacağımızı deyib. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Türkiyəyə səfəri zamanı ölkələrimiz arasında media qurumlarının yaxın əməkdaşlığı, birgə media platformasının yaradılması, xəbər, mütəxəssis və fikir mübadiləsinin həyata keçirilməsi, o cümlədən hər iki ölkənin sosial media vasitəsilə dünyada daha yaxından tanıdılması haqqında danışıqların aparılması mühüm əhəmiyyətə malikdir. Həmçinin Hikmət Hacıyev Türkiyənin nüfuzlu "Haber Global" telekanalında çıxışı zamanı bildirib ki, biz qardaş ölkələr olaraq birlikdə hərəkət edərək doğruları beynəlxalq təşkilatlara daha aktiv şəkildə çatdırmalıyıq. Lazım olan anda, lazımi yerdə bir-birimizə dəstək verib, xarici siyasətdə olduğu kimi, hərbi mövzularda da bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Türkiyənin bu günlər regional, beynəlxalq müstəvidə milli maraqları, xalqının mənafeyini nəzərə almaqla apardığı aktiv siyasəti görürük və bununla qürur duyuruq.

Səməd Seyidov qeyd edib ki, qardaşlıq münasibətlərinin bundan sonra daha güclü inkişaf etməsinin bariz nümunəsi sentyabrın 10-da Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin ilk rəsmi səfərinin məhz Türkiyə Respublikasına olmasıdır.

"Azərbaycan ilə Türkiyə hər zaman bir-birinin yanındadır. Ən əsası, Azərbaycan-Türkiyə əlaqələri bütün türk dünyası üçün də mühüm rol oynayır və türkdilli dövlətlər arasında münasibətlərin inkişafına da güclü təsir göstərir. Həmin qardaşlıq münasibətlərinin bundan sonra da inkişaf etməsi üçün tərəflərin güclü iradəsi və istəyi var. Qarşılıqlı səfərlər və həyata keçirilən tədbirlər də məhz belə deməyə əsas verir", - deyə Milli Məclisin komitə sədri bildirib.

# AŞ PA-nın komitə iclasında Ermənistanın işğalçılıq siyasətindən danışılıb

Sentyabrın 8-də AŞ PA-nın Siyasi işlər və demokratiya komitəsinin videokonfrans formatında iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri, deputat Tural Gəncəliyev çıxışında Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın təcavüzkar siyasətini və cinayətkar fəaliyyətini hələ də davam etdirdiyini bildirib. O, Ermənistanın iyulun 12-də Azərbaycanın Tovuz rayonu istiqamətində yeni təcavüz aktı həyata keçirdiyini, Azərbaycanın isə buna adekvat olaraq özünümüdafiə hüququndan istifadə edərək cavab verdiyini qeyd edib. Ermənistanın bu hücumu nəticəsində sərhədboyu zonada mülki əhaliyə və infrastruktura dəymiş zərərə toxunan T.Gəncəliyev bütün bunların beynəlxalq humanitar hüququn kobud surətdə pozulması olduğunu vurğulayıb.

T.Gəncəliyev, həmçinin Ermənistanın öz işğal siyasətindən əl çəkmədiyini, yeni ərazilərimizə iddialı olduğunu, dövlət səviyyəsində ilhaq siyasətinin aparıldığını və bütün bunların Ermənistanın müdafiə naziri D.Tonoyanın "yeni ərazilər üçün yeni müharibə" doktrinası ilə bir daha öz təsdiqini tapdığını qeyd edib.

Ermənistanın münaqişənin həllində maraqlı olmadığını, sülh danışıqlarını pozduğunu vurğulayan deputat bu ölkənin beynəlxalq ictimaiyyətin nəzərində öz işğalçı əməllərini pərdələmək cəhdlərini ifşa edib. O, münaqişə ilə bağlı BMT-nin qətnamələrinə və digər beynəlxalq təşkilatların sənədlərinə hələ də əməl olunmadığını xatırladıb.

# Pandemiya dövründə Uşaq və Ailələrə Dəstək mərkəzlərinin fəaliyyəti barədə müzakirələr aparılıb



Sentyabrın 8-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) nəzdində fəaliyyət göstərən 11 Uşaq və Ailələrə Dəstək mərkəzinin (UADM) iştirakı ilə onlayn görüş keçirilib.

Dövlət komitəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı pandemiya dövründə UADM-lərin fəaliyyəti, həyata keçirilən tədbirlər, qarşıya qoyulan məqsəd və vəzifələr müzakirə edilib.

Komitənin sədri Bahar Muradova tədbiri açaraq iştirakçıları salamlayıb, pandemiya dövründə qurumun fəaliyyəti barədə qısa məlumat verib, mərkəzlərin işi ilə bağlı müzakirənin keçirilməsinin, ötən müddət ərzində görülən işlərin, əldə olunan nəticələrin təhlilinin aparılmasının vacibliyini və belə görüşlərin əhəmiyyətini vurğulayıb. Komitə sədri mərkəzlərin fəaliyyətində ailələrlə işin keyfiyyətinin artırılması, aidiyyəti dövlət qurumları ilə koordinasiyalı işin gücləndirilməsi və həyata keçirilən tədbirlərin nəticələrinin monitorinqinin aparılmasının vacibliyini diqqətə çatdırıb. Həmçinin bu sahədə əldə olunan təcrübəni əsas gətirərək belə struktur bölmələrinin fəaliyyətinin müsbət nəticələr verdiyini və respublika üzrə bütün əhali qruplarını əhatə edə bilmək üçün gələcəkdə yeni mərkəzlərin yaradılmasının önəmini qeyd edib. B.Muradova pandemiya ilə əlaqədar mərkəzlərə daxil olan müraciətlərin sayının artdığını nəzərə alaraq onlayn regional qəbulların keçirilməsinin vacibliyini bildirib.

Dövlət komitəsinin Maliyyə-təsərrüfat şöbəsinin rəhbəri Zöhrab Həsənov mərkəzlərin sosial işi təcrübədə həyata keçirən qurum kimi həssas təbəqədən olan əhali qruplarını əhatə etdiyini bildirib. Pandemiya dövründə maarifləndirmənin onlayn seminarlar şəklində davam etdirilməsi, həyata keçirilən sosial yardım kampaniyaları, daxil olan müraciətlərlə bağlı görülən işlər barədə məlumat verib, dövlət proqramlarının icrası istiqamətində qarşıda duran vəzifələri və hədəfləri qeyd edib.

Sonra çıxış edən UADM-nin rəhbərləri Yaqut Qəhrəmanova (Ağdam), Sənəm Alxasova (Goranboy), Cövhərət İbrahimova (Zaqatala), Lətifə Əliyeva (İsmayıllı), Ruhəngiz Əliyeva (Sabirabad), Sitarə Əhmədova (Şüvəlan) və Aynur Əsədova (Hacıqabul) həyata keçirilən tədbirlər barədə məlumat verib, həssas təbəqədən olan ailələrlə işin təkmilləşdirilməsi, hər bir regiona xas problemlərin aradan qaldırılması istiqamətində təkliflər səsləndirdilər.

Daha sonra çıxış edən sədr müavini Sədaqət Qəhrəmanova mərkəzlərin iş mexanizminin günün tələblərinə uyğun təşkil edilməsinin vacibliyini bildirib, önləyici tədbirlərin keçirilməsi istiqamətində dövlət orqanları və Resurs mərkəzləri ilə birgə əməkdaşlığın müsbət nəticələr verdiyini diqqətə çatdırıb.

Sədr müavini Aynur Sofiyeva çıxışında həyata keçirilən tədbirlərin nəticələrinin təhlilinin aparılması məsələsinə toxunaraq sorğuların keçirilməsinin önəminə diqqət çəkib.

Komitə sədri Bahar Muradova qarşıya qoyulan məqsədlərə çatmaq üçün bütün mövcud imkanları və səyləri birləşdirməyin vacibliyini vurğulayıb, bunun üçün, ilk növbədə, mərkəzlərin əməkdaşlarının peşəkarlıq bacarıqlarının yüksəldilməsi, müxtəlif əhali qrupları ilə təmasların intensivləşdirilməsi, yerli dövlət orqanları ilə əlaqələndirilmiş işin qurulması, həyata keçirilən fəaliyyətin səmərəliliyinin artırılmasına yönəlmiş addımların atılmasına ehtiyac olduğunu qeyd edib.

Sonda komitə tərəfindən həyata keçirilən dövlət proqramlarından və 2020-ci ilin ikinci yarısına dair Milli Fəaliyyət Planından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün müvafiq tapşırıqlar verilib.

# Azərbaycan UNESCO-da Qoşulmama Hərəkatının növbəti bəyanatını səsləndirib

Qoşulmama Hərəkatının 2019-cu il oktyabrın 25-26-da Bakıda keçirilmiş XVIII Zirvə toplantısında üzv dövlətlər nəsildən-nəslə ötürülən mədəni irsin dəyərliliyini təmin etmək və sülh, dözümlülük, birgəyaşayış, insan hüquqlarına hörmət aləti kimi, eləcə də xalqların kimliyini və mədəni müxtəlifliyini təşviq etmək məqsədilə qeyri-maddi mədəni irsin qorunması sahəsində beynəlxalq ictimaiyyətə mühüm töhfə olan 2003-cü il Konvensiyasına sadiq olduqlarını bir daha təsdiqlədilər.

AZƏRTAC xəbər verir ki, bu fikirlər UNESCO yanında Azərbaycan daimi nümayəndəsinin səlahiyyətlərini icra edən Ayaz Qocayevin Parisdə UNESCO-nun baş qərargahında "Qeyri-maddi mədəni irsin qorunması" üzrə 2003-cü il Konvensiyasının iştirakçı dövlətlərinin Baş Assambleyasının 8-ci sessiyasında UNESCO yanında Qoşulmama Hərəkatı qrupunun adından səsləndirdiyi bəyanatda qeyd olunub.

O, Konvensiyanın həyata keçirilməsinin daha da inkişaf etdirilməsində yorulmadan göstərdiyi səylərə və bir çoxunun da Qoşulmama Hərəkatının üzvü olan çoxsaylı ölkələr tərəfindən ratifikasiyasına nail olmasına görə Konvensiya katibliyinə minnətdarlığını ifadə edərək deyib: "Konvensiya Katibliyinin və UNESCO-nun Mədəniyyət sektorunun qeyri-maddi mədəni irsin icmaların rifahına verdiyi töhfələri nəzərə alaraq, COVID-19 pandemiyası səbəbindən yaranmış sanitar böhran, karantin və iqtisadi durğunluq kimi çağırışlar qarşısında təcili cavab vermək üçün göstərdiyi səyləri yüksək qiymətləndiririk. İnanırıq ki, qeyri-maddi mədəni irs əhalinin vəziyyətinin bərpasını dəstəkləməyi və davamlı inkişaf hədəflərinə çatmağı daha da təşviq etmək üçün son dərəcə dəyərli mənbə olacaq".

Ayaz Qocayev vurğulayıb ki, dünyanın üzləşdiyi mövcud çətinliklər - silahlı münaqişələr, məcburi köçkünlər və təbii fəlakətlər də daxil olmaqla, fövqəladə hallar şəraiti UNESCO qarşısında qeyri-maddi mədəni irsin qorunmasına verilən cavabları sürətləndirmək səylərini ikiqat artırmaq zərurətini yaradır. Bu baxımdan Konvensiya Katibliyinin Baş Assambleyanın 8-ci sessiyasında müzakirə ediləcək xüsusi təlimatların və əlverişli şərtlərin hazırlanması üzrə gördüyü işlər yüksək qiymətləndirilib.

Diqqətə çatdırılıb ki, UNESCO yanında Qoşulmama Hərəkatı qrupu Hökumətlərarası Komitə və Katiblik tərəfindən Konvensiyanın həyata keçirilməsində qeyri-hökumət təşkilatlarının rolu və həmçinin Konvensiya daxilində qeydiyyat mexanizmlərində mümkün islahatlara dair irəli sürdüyü fikirləri alqışlayır. Qoşulmama Hərəkatı qrupunun üzvləri bu fikirlərin Konvensiyanın ruhunu və prinsiplərini inkişaf etdirməyə kömək edəcəyinə, dialoqa töhfə verəcəyinə və Konvensiyanın milli və beynəlxalq səviyyədə həyata keçirilməsində icmaların və icma təşkilatlarının iştirakı imkanlarını genişləndirəcəyini düşünürlər.

Qeyd edilməlidir ki, UNESCO yanında Qoşulmama Hərəkatı qrupunun bəyanatları bundan əvvəl, yalnız UNESCO İcraiyyə Şurasının sessiyalarında səsləndirilirdi. UNESCO yanında Qoşulmama Hərəkatı qrupuna sədrlik edən Daimi nümayəndəliyimizin təşəbbüsü və qrup üzvlərinin razılığı ilə Hərəkatın fəaliyyətini daha da genişləndirmək məqsədilə bu cür bəyanatların UNESCO ilə əlaqəli digər hökumətlərarası qurumların iclaslarında da səsləndirmək qərara alınıb.

# Kaliforniya radiosunda Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatı müzakirə edilib

Kaliforniyanın San-Dieqo şəhərində fəaliyyət göstərən, ABŞ-da nəşr olunan "Dağlarda qətl: Xocalıda hərbi cinayət və Dağlıq Qarabağ münaqişəsi" və "Erməni lobbisi və ABŞ-ın xarici siyasəti" kitablarının müəllifi amerikalı jurnalist Raul Kontreras özünün "The Contreras Report" radio proqramının sentyabr buraxılışında Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatı, Rusiyadan Ermənistana silah transferləri, ABŞ-dakı erməni lobbisinin məkrli fəaliyyətləri, iyulun 21-də Los-Ancelesdə radikal erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər və digər məsələlər barədə dinləyicilərə məlumat verib. Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan məlumat verilib.

Verilişdə müəllif iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın şimal-qərb sərhədində ölkəmizə qarşı hücuma keçdiyini, nəticədə 10-dan çox hərbçimizin və bir mülki şəxsin öldürüldüyünü və bir sıra yaşayış yerlərinin dağıdıldığını qeyd edir. Bu hərbi təxribatın baş verdiyi əraziyə diqqəti yönəldən R.Kontreras bunun Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə yox, oradan uzaqda olan Azərbaycan-Ermənistan sərhədində baş verdiyini bildirir.

ABŞ-dakı erməni daşnaklarının tarixindən danışan müəllif onların nasizmə rəğbət bəsləyən keçmişindən bəhs edərək bu gün bu irqçi ideologiyanın daşnakların əsas lobbi qanadı olan Amerika Erməniləri Milli Komitəsi (ANCA) tərəfindən davam etdirildiyini vurğulayır. R.Kontreras ANCA-nın bir sıra ABŞ siyasətçilərini ələ aldığını və onların zaman-zaman bu yolla ABŞ-ın Azərbaycan ilə bağlı xarici siyasətinə müdaxilə etməyə çalışdıqlarını qeyd edir.

Müəllif 21 iyul hadisəsi barədə danışaraq Los-Ancelesdəki baş konsulluğumuz qarşısında ANCA-nın təşkilatçılığı ilə aksiya keçirən çoxsaylı erməni daşnaklarının dinc azərbaycanlı nümayişçilərə hücum edib onlardan bir neçəsinə xəsarət yetirdiklərini bildirir və hazırda hadisənin polis tərəfindən nifrət zəminində törədilən cinayət maddəsi üzrə araşdırıldığını diqqətə çatdırır. Jurnalist hadisədən sonra Los-Anceles şəhərinin merinin, habelə Simon Vizental Mərkəzi, Amerika Yəhudi Komitəsi, İsrail-Amerika Şurası və Anti-Defamasiya Liqası kimi nüfuzlu yəhudi təşkilatlarının həmvətənlərimizə qarşı həyata keçirilmiş zorakılığı qətiyyətlə pislədiklərini qeyd edir.

Radioverilişin tam versiyasını bu linkdə dinləmək mümkündür: https://the-contreras-report-an-hispanic-view-of-the-usa.castos.com/episodes/114-the-contreras-report-a-hispanic-view-of-the-usa.

◆ Yeni dərs ili qarşısında

# Təhsil strateji hədəfimizdir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev son onilliklərdə ölkənin əsas təbii sərvəti olan neftin insan kapitalına çevrilməsini Azərbaycan dövlətinin əsas strateji hədəflərindən biri kimi elan edib. Bu istiqamətdə ardıcıl tədbirlər görülür, davamlı islahatlar həyata keçirilir. Yaradılmış yeni təhsil mühiti, müasir yanaşmalar hazırda Azərbaycanda yeni bir nəsil yetişdirib. Çağdaş texnologiyalara bələd, geniş dünyagörüşünə, müvafiq bilik və bacarıqlara malik bu nəsil cəmiyyət həyatının ən müxtəlif sahələrində parlaq uğurlarla özünü ifadə edir. Onların fəallığı, peşəkarlığı, enerjisi, müasir texnologiyalarla iş vərdişləri ölkəmizi daha da gücləndirir və inkişaf axarında önə çıxarır.

Təhsil daimi dəyişikliklər tələb edən, davamlı şəkildə yenilənən sahədir. Ona görə Azərbaycanda da təhsil islahatları bir yerdə dayanmır. Son illər bu sahənin maddi-texniki bazası müasirləşdirilib. Ölkənin bütün regionlarında 3500-dən çox məktəb yenidən tikilib, yaxud əsaslı təmir edilib. Azərbaycanda ali məktəblərin mütləq əksəriyyəti müasir standartlara uyğunlaşdırılıb. Yeni binalar, korpuslar inşa olunub, təzə ali təhsil ocaqları yaradılıb. Elə son bir neçə gündə Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə Qobu qəsəbəsindəki 216 nömrəli məktəbin yeni binasının, əsaslı təmirdən çıxmış Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) və ADA Universitetinin yeni tədris korpuslarının açılışı bunun bir nümunəsidir. Dövlət başçısı Bakının Nizami rayonundakı 251 nömrəli tam orta məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olub, təhsil ocağının yeni korpusunun açılışında iştirak edib.

UNEC-in müasir kampus standartlarına cavab verən, modern memarlıq elementləri ilə zəngin olan 4 binadan ibarət yeni tədris korpusunda texniki və texnoloji ixtisaslar üzrə 3 min tələbə təhsil ala biləcək. ADA Universitetinin isə iki yeni korpusu istifadəyə verilib. Bu korpuslarda da təlim-tədrisin ən müasir səviyyədə aparılması üçün bütün imkanlar yaradılıb. Dünyanın yeni təhsil trendləri nəzərə alınıb. Universitetin yüksək texnoloji imkanları sayəsində tələbələr həm onlayn şəkildə təhsil ala biləcək, həm də canlı dərslər keçiriləcək.

## Faydalı təcrübə

Yeri gəlmişkən, məsafədən təhsil artıq günümüzün əsas reallıqlarındandır. COVID-19 pandemiyasının yaratdığı məhdudiyyətlər dövründə bu təcrübə dünyada geniş yayıldı. Onlayn təhsilin nə qədər effektiv həll olduğunu hamı gördü. Azərbaycan da karantin dövründə onlayn təhsil metodlarından geniş faydalandı. Dövlətimizin həyata keçirdiyi operativ tədbirlər nəticəsində məktəblər, müəllimlər yeni şəraitə sürətlə uyğunlaşaraq tədris prosesini məsafədən təşkil etməyə başladılar. Bu məsələdə kütləvi informasiya vasitələrinin, xüsusilə televiziyaların imkanlarından da istifadə edildi. Beləliklə, təhsil prosesində böyük fasilələr yaranmadı. Proqnozlara görə, dünyada həyat normala dönəndən sonra da onlayn təhsil təcrübəsindən geniş istifadə ediləcək. Bu baxımdan karantin dövründə məsafədən tədris metodlarından istifadə Azərbaycan təhsili üçün faydalı təcrübə formalaşdırdı. Distant təhsil üçün öyrənmək istəyən hər kəsə açıq zəngin virtual baza formalaşdırıldı.

Təqdir olunan məqamlardan biri də budur ki, pandemiya ilə bağlı tətbiq edilən məhdudiyyətlər 2020-2021-ci tədris ilinə hazırlıq prosesinə də mane ola bilmədi. Hazırda şagirdlər üçün əvvəlcədən müəyyən edilmiş plan üzrə lazımi qədər dərsliklər çap edilib. Tədris müəssisələrinə qəbul prosesləri, digər tədbirlər uğurla həyata keçirilib. Karantinin hələ tam aradan qalxmadığı dövrdə məktəblərdə tədrisin mərhələli şəkildə başlanması üçün müvafiq qaydalar müəyyənləşdirilib və bu qaydalara uyğun olaraq tədricən təhsil müəssisələri öz fəaliyyətlərini bərpa edə biləcəklər.

## Yeni mühit

Son illər təhsilimizdə ən xoş nailiyyətlərdən biri də Azərbaycanda xarici ölkələrlə birgə universitetlərin yaradılmasıdır. Artıq bir neçə müştərək universitet və xarici ölkələrdəki nüfuzlu ali məktəblərin filialları Azərbaycanda uğurla fəaliyyət göstərir. Həmçinin ayrı-ayrı xarici universitetlərlə birgə diplom proqramları uğurla tətbiq edilir.

Hazırda ADA Universitetinin perspektiv planında da Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi var. Bu ilin fevralında Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfəri zamanı humanitar və təhsil sahəsində əməkdaşlıq barədə müzakirələr aparılıb, sənədlər imzalanıb. Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis olunması və belə bir təhsil ocağının yaradılmasının ADA Universiteti ilə birlikdə həyata keçirilməsi razılaşdırılıb. Yeni universitetdə müasir dünya iqtisadiyyatı üçün vacib olan elektrik mühəndisliyi, su təsərrüfatı mühəndisliyi, nəqliyyat mühəndisliyi, kənd təsərrüfatı və qida biznesinə aid sahələr, arxitektura və dizayn peşələri, menecment, marketinq və digər sahələr üzrə kadrlar hazırlanacaq.

Bununla beynəlxalq təhsil təcrübəsi ölkəmizdə geniş yayılır. Ali məktəblər arasında rəqabət mühiti yaranır. Daha yüksək təhsil standartları müəyyənləşir. Bundan qazanan isə, təbii ki, cəmiyyətimizdir. Yüksək standartlara uyğunlaşdırılan universitetlərdə tələbələrimiz daha keyfiyyətli təhsil almaq imkanı əldə edir, qazandıqları müasir bilik və bacarıqlarla qlobal əmək bazarına maneəsiz olaraq qoşula bilirlər. Digər tərəfdən, nəzərə alaq ki, hazırda təhsil dünyanın əksər inkişaf etmiş ölkələri üçün ciddi gəlir mənbəyidir. Müasir dünyanın insanları təhsilə və bununla öz fərdi inkişaflarına, gələcəklərinə böyük investisiyalar qoyurlar. Keyfiyyətli təhsili təmin edən universitetlərdə müvafiq bilik və bacarıqlara yiyələnmək üçün hər il dünyanın müxtəlif ölkələrindən on minlərlə tələbə gəlir, yaxud distant qaydada müxtəlif təhsil proqramlarına qoşulur. Bu isə hər bir ölkə üçün böyük qazanc deməkdir. Azərbaycan da universitetlərin inkişafı ilə bağlı həyata keçirilən proqramlarla yaxın gələcəkdə dünyanın tanınmış təhsil mərkəzlərindən birinə çevriləcək.

UNEC-in açılışı mərasimindən hazırlanmış reportajlarda media Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın maraqlı bir ifadəsinə xüsusi diqqət yönəltdi. Mehriban xanım dövlətimizin bu universitetdə gördüyü işlərdən, gənc nəslin təhsili üçün yaradılmış yüksək şəraitdən məmnunluğunu "İnsan lap yenidən tələbə olmaq istəyir" sevinci ilə ifadə etdi. Həqiqətən, bu, eyni şəraiti indi məktəbəqədər tədris müəssisələrimizdən tutmuş universitetlərimizə qədər bütün təhsil müəssisələrində görüb müşahidə edən hər kəsin arzusudur. İnsan yenidən uşaqlığına, şagirdlik, tələbəlik dövrlərinə qayıdıb bu müəssisələrin imkanlarından faydalanmaq istəyir, özünü belə bir təhsil mühitində yetişdirərək gələcəyə hazırlamağa can atır.

Bu şəraitin yaradılmasında, son illər təhsil sahəsində əldə edilmiş parlaq nəticələrdə Mehriban xanım Əliyevanın misilsiz əməyi var. Birinci vitse-prezident bu sahədə həyata keçirdiyi təşəbbüslərlə təhsili Azərbaycan insanı üçün bir dəyərə çevirib. Bu sahənin həyatımızda nə qədər böyük önəm daşıdığını hər kəsə anladıb, təhsilə münasibətdə ictimai məsuliyyət hissi formalaşdırıb.

## Müəllimin nüfuzu yüksəlir

Təhsilə göstərilən dövlət qayğısı, müəllim əməyinə verilən qiymət cəmiyyətdə bu şərəfli peşə sahiblərinin nüfuzunu yüksəldir. Təhsil işçilərinin peşəkarlığının yüksəldilməsi üçün tətbiq edilən proqramlar öz bəhrəsini verir. Diaqnostik qiymətləndirmədən uğurla keçmiş müəllimlərin əməkhaqqı orta hesabla 2 dəfə artırılıb. Belə tədbirlər insanların dünyanın ən gözəl peşələrindən olan müəllim sənətinə bağlılığını gücləndirir. Onlarda böyük motivasiya yaradır.

Təkcə bir faktı qeyd edək ki, bu il müxtəlif məktəblərdə müəllim vəzifəsinə qəbul üçün 46 minə yaxın şəxs sənəd verib. Belə bir göstərici əvvəlki illərlə müqayisədə 3 dəfə çoxdur. Bu, təhsilin inkişafı istiqamətində əldə edilən nəticələrdən, eyni zamanda təhsil islahatlarına yüksək inamdan irəli gəlir və minlərlə şəxs arasından gənc nəslin gələcəyini etibar etməkdən ötrü məhz ən layiqlilərin seçilməsi üçün güclü rəqabət mühiti yaradır.

Cəmiyyətimizdə müəllimin nüfuzunun artmasının əsas göstəricilərindən biri də ali məktəblərə qəbul imtahanları zamanı kifayət qədər yüksək bal toplamış gənclərimizin məhz bu sənəti seçmələridir. Etiraf edək ki, illər əvvəl müəllim olmaq istəyənlərin sayı bu qədər çox deyildi. Gənclər daha yaxşı dolanışıq imkanı, maddi təminatlar vəd edən başqa ixtisaslara meyil göstərirdilər. Amma bu gün müəllimlik gənclərimiz üçün ən cəlbedici peşələr sırasında qərarlaşır. Böyüməkdə olan nəslin təlim-tərbiyəsində, gələcəyinin formalaşmasında onların rolu cəmiyyətdəki nüfuzunu getdikcə yüksəldir. Həm ayrı-ayrı fərdlərin, həm də toplumun müqəddəratı üçün bu müqəddəs peşə sahiblərinin nə qədər önəmli sima olduğunu hər kəs aydın şəkildə dərk edir.

## Dördüncü Sənaye İnqilabı qarşısında

Təhsil sistemimizin ölkəmizin ümumi iqtisadi və sənaye inkişafı ilə uzlaşmalı olmasını da Azərbaycan Prezidenti əsas vəzifələrdən biri kimi aktuallaşdırır. Bu da Dördüncü Sənaye İnqilabının mövcudluğu, dünyada gedən rəqəmsallaşma tendensiyaları ilə bağlıdır. Sirr deyil ki, rəqəmsallaşma, müasir texnologiyaların geniş yayılması və tətbiqi bəzi peşələri lazımsız edir. Artıq yaxın illərdə sıradan çıxacaq peşələrin bəlli bir siyahısı var. Bu peşələr üzrə mütəxəssis hazırlığının davam etdirilməsinə, təbii ki, ehtiyac yoxdur. Amma buna paralel olaraq, yeni peşələr ortaya çıxır. Dövlət rəhbəri yeni yaranan peşələr üzrə mütəxəssis hazırlığına ciddi diqqət yetirilməsini tapşırır. Həmin yaradılacaq peşələrin böyük bilik, savad və müasir texnologiyalar tələb etdiyini nəzərə alaraq gələcəkdə əhali arasında işsizlik probleminin yaranmaması üçün qeyd edilən məsələlər üzrə kompleks tədbirlərin həyata keçirilməsini, xüsusilə peşə təhsilinin diqqətdə saxlanmasını, eyni zamanda cəmiyyətdə bu sahədə maarifləndirmə işlərinin aparılmasını zəruri sayır.

Bu gün təhsil prosesinin əsas iştirakçıları müstəqillik dövründə doğulub formalaşmış nəsli təmsil edən şagirdlər və tələbələrdir. Bu nəslin nümayəndələri artıq təhsil işçiləri arasında da üstünlük qazanmağa başlayırlar. Ölkəmizin möhtəşəm gələcəyini keçmişin dəyərləri, zəngin ənənələri üzərində müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam olan bu nəsil formalaşdıracaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Görülən işlərə layiq olduğu qiyməti verməliyik

Həyat gözəldir. Ondan zövq alıb yaşamaq daha mənalı olur. Dövlət başçısı da məhz buna çalışır. Aparılan sosial-iqtisadi, mədəni siyasət də ölkə vətəndaşlarının yüksək rifah içində, sağlam yaşamasına xidmət edir. Bu, həm də insanları vətəni, el-obanı sevərəkdən yaşatmasına, onu düşməndən qorumasına sövq etdirir.

Həyatı bir az da gözəlləşdirmək, yaranmışların əşrəfi olan insanları daha yaxşı yaşatmaq, gün-güzəranlarını daim yaxşılaşdırmaq, ölkəni inkişaf etdirmək - bütün bunlar dövlətimizin sosial siyasətinin əsasını təşkil edir. Respublikamızda son illər kənd təsərrüfatında, sənayedə, nəqliyyatda, tikinti-quruculuq və abadlıq işlərində qazanılan uğurlar elə bunun nəticəsidir.

Dövlət başçısının xüsusən sosial sahələrə diqqət yetirməsi, şəhid ailələrinə, məcburi köçkünlərə hər cür kömək göstərməsi əhali tərəfindən çox müsbət və minnətdarlıqla qarşılanır. Şübhə yoxdur ki, əldə etdiyimiz nailiyyətlər bizi istəməyənlərin - həm xarici, həm də daxili düşmənlərimizin narahatlığına səbəb olur. Unutmayaq ki, bizim məkrli düşmənimiz var. Erməniləri İrandan, İraqdan, Suriyadan, Livandan... nə bilim daha haralardan gətirib bizə qonşu edəndə onlara qarşı öz xeyirxahlığımızı göstərmişik: yaxşılıq etmişik, əllərindən tutmuşuq, süfrəmizin başında oturtmuşuq, yeməklərimizin yaxşısını onlara vermişik.

Bəs, bu yaxşılıqlarımızın əvəzi nə olub? Nankorluq, paxıllıq, riyakarlıq, naqislik! Ermənilər həmişə düşünüblər: "Ayağıma yer edim, gör sənə nə edirəm". Yaxşılıqlarımıza yamanlıqla cavab veriblər. Zaman keçdikcə, hissə-hissə torpaqlarımızı qamarlayıblar. Dədə-baba kəndlərimizin adlarını dəyişdirib "haylaşdırıblar": erməni adları ilə əvəzləşdiriblər. Musiqimizə, mədəniyyətimizə, mətbəximizə sahib olmağa çalışıblar.

Pislik, yamanlıq, yaltaqlıq, riyakarlıq xislətindədir onların. İstəsələr də, sonradan peşmançılığını çəksələr də, dəyişə bilməzlər bu adətlərini. Müdrik ata-babalarımız nahaq yerə deməyiblər ki, "südlə girən sümüklə çıxar".

Tarix sübut edib ki, Ermənistan adlı dövlət olmayıb. Azərbayan Prezidenti cənab İlham Əliyev Münhen Beynəlxalq Konfransında Ermənistanın baş naziri Paşinyana tarix dərsi keçərkən konkret faktlarla bunu bir daha sübut etdi. Bu danılmazdır ki, ermənilər Azərbaycan torpaqlarının hesabına daim ərazilərini genişləndirməyə çalışıblar.

Sonuncu dəfə Dağlıq Qarabağın və ona bitişik 7 rayonun itirilməsi - işğala məruz qalması ermənilərin özlərinin deyil, havadarlarının hərbi-siyasi gücü ilə baş tutub. Ermənilər üzbəüz döyüşdə bunu heç vaxt bacarmazdılar. Necə ki, 2016-cı ilin aprel və bu ilin iyul ayının ortalarında Tovuz döyüşlərində bunun şadidi olduq.

Azərbaycan Prezidenti İlham Əliyev qarşımıza 7 şərt qoyan Ermənistanın baş nazirinə çox tutarlı cavab verib: "Əgər Ermənistanın baş naziri deyirsə ki, "Dağlıq Qarabağ Ermənistandır", əgər deyirsə ki, biz qondarma "Dağlaq Qarabağ respublikası" ilə danışıqlar aparmaq istəyirik, deməli, o, danışıqları məhv edir. Mən 7 şərtin qarşısına bir şərt qoyuram, bir şərt - erməni silahlı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına qaytarılmalıdırlar! Budur mənim şərtim və məsləhət görürəm ki, onlar bu şərti qəbul etsinlər".

Biz çox yaxşı bilirik ki, iddialı qatı düşmənimiz var. Onları susdurmaq üçün hər cür imkanlara malikik. Bizi narahat edən təkcə odur ki, bu vətənin çörəyi ilə böyüyən bəzi nankorlarımız xarici ölkələrə sığınıblar. Onlar yaxşı işlərimizə qara yaxmağa çalışır, vətənimizin milli və dövlət maraqlarına xəyanət edirlər.

Əlbəttə, dövlət başçısının koronavirus pandemiyası ilə mübarizədə söylədiyi kimi, "Biz birlikdə güclüyük". Həmin satqın, nankorlarımız niyə başa düşmək istəmirlər ki, Ermənistanda təkcə bir nəfər belə azərbaycanlı qalmadığı halda, onlardan bizdə olanları az deyil. Hələ də erməniyə işləyənlər, sirlərimizi onlara çatdıranlar var. Azərbaycandan xeyli uzaqlardan vətənə xəyanət edənlər düşmən dəyirmanına su tökdüklərini doğrudanmı anlamırlar, yaxud bu qədər nankorlaşıblar?!

Niyə hələ də müharibə şəraitində yaşadığımızı unuduruq biz? Niyə başa düşmürük ki, düşmənlərimiz bizim hər bir sözümüzdən öz xeyirlərinə istifadə etməyə çalışırlar?

***Qədir TƏRTƏRLİ,***
***Tərtər Ağsaqqallar Şurasının sədri***

# Hasilat ahəngdar, gəlirlər sanballıdır

## AÇG və "Şahdəniz" ölkə iqtisadiyyatına töhfələrini davam etdirir



*Əvvəli 1-ci səh.*

Xəzərin Azərbaycan sektorundakı AÇG və "Şahdəniz" yataqları hazırda dünyada istismar olunan ən böyük və zəngin karbohidrogen yataqlarıdır. AÇG 26 ildir etibarlı tərəfdaşlıq, ekoloji baxımdan zərərsiz əməliyyatlar sayəsində təhlükəsiz işlənir , 23 ilə yaxındır ahəngdar şəkildə neft və səmt qazı verir.

AÇG-dən indiyədək əldə olunan hasilatın həcmi bu ilin yanvar ayında 500 milyon tona çatıb. Bu yataqlardan ölkəmizə təmənnasız olaraq həmçinin ümumilikdə 45 milyard kubmetrdən artıq səmt qazı təhvil verilib.

AÇG-də 8 platforma fəaliyyət göstərir. Bunlardan 6-sı hasilat, 2-si emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğusudur. Hasilat "Çıraq", "Mərkəzi Azəri", Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli" və"Qərbi Çıraq" platformalarından həyata keçirilir.

Hazırda AÇG 7-ci hasilat platformasının yolunu gözləyir. Belə ki, 2017-ci ilin sentyabr ayında AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş çərçivəsində yeni bir platforma inşa edilir.

"Azəri Mərkəzi Şərqi" adlanan həmin qurğu gündəlik 100 min barelədək neft hasil etmək gücündə layihələndirilib. İstismar müddəti ərzində qurğunun 300 milyon barelə qədər əlavə neft hasil edəcəyi gözlənilir. Layihə çərçivəsində ilk hasilatın 2023-cü ildə alınacağı nəzərdə tutulur.

"Şahdəniz" qaz-kondensat yatağından da hasilat ahəngdar davam edir. "Şahdəniz" qurğularının hasilat gücü gündə 56 milyon, ildə 20 milyard standart kubmetrdən çox mavi yanacaqdan ibarətdir.

"Şahdəniz"in ümumi ehtiyatları isə 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensat həcmində dəyərləndirilir. Azərbaycanı dünyada qaz ixrac edən ölkə kimi məhz bu yataq tanıdıb. "Şahdəniz" çəkilişi yekunlaşmaqda olan "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyidir. Başqa sözlə, "Şahdəniz" ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcək bir yataqdır.

Hazırda "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan təbii qazın Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə Avropaya test rejimində nəqlinə başlanılıb.

Qaz Türkiyə-Yunanıstan sərhədində TANAP-a birləşən Trans-Adriatik Qaz Boru Kəməri (TAP) ilə Adriatik dənizinin altından keçəcək və İtaliyaya qədər çatdırılacaq. TAP-ın 2021-ci ilin birinci rübündə tam gücü ilə fəaliyyət göstərəcəyi bildirilir.

Azərbaycan nefti və qazı dünya bazarlarına başlanğıcını Səngəçal terminalından götürən marşrutlarla çatdırılır. Xatırladaq ki, bu, dünyanın ən böyük neft-qaz terminallarından biridir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Gürcüstan hökuməti Azərbaycan dilində təhsil alan məzunları üçün qrant proqramı hazırlayıb

Gürcüstan hökumətinin qərarı ilə ali və peşə təhsili müəssisələrinə qəbul olan bəzi tələbələr təhsil üçün dövlət qrantı ala biləcəklər. Bununla bağlı xüsusi proqram hazırlanıb. AZƏRTAC xəbər verir ki, bu barədə ölkənin Təhsil Nazirliyi məlumat yayıb.

Bildirilir ki, proqramda vahid milli imtahanlar üzrə universitetlər və peşə məktəblərinə qəbul olan tələbələrin təhsilinin dövlət tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulub. Burada 13 kateqoriyaya aid olan tələbələrə dövlət qrantı əldə etmək imkanı yaradılıb. Bu kateqoriyalardan birinə tədrisi Azərbaycan dilində olan məktəblərin məzunları daxildir.

Bu il ilk dəfə olaraq sosial proqramla bağlı qeydiyyat yalnız onlayn qaydada screg.-mes.gov.ge elektron portalında aparılacaq.

Sentyabrın 8-də qrant almaq üçün müraciətlərin qəbuluna başlanılıb və proses sentyabrın 28-dək davam edəcək.

# Ermənistan Qarabağda yeni təxribat hazırlayır

*Əvvəli 1-ci səh.*

Xüsusən də baş nazir Nikol Paşinyanın Dağlıq Qarabağa səfərlərinin intensiv xarakter daşıması, işğal edilmiş ərazilərdə yaradılan separatçı rejimin danışıqlar prosesində tərəf olmasını davamlı şəkildə gündəmə gətirməsi sülh prosesinin üzərindən xətt çəkir.

Hətta qondarma Dağlıq Qarabağ respublikasının (DQR) paytaxtı Stepanakertə gələrək, yerli hərbi rəhbərliklə görüş keçirdikdən sonra Paşinyan "Bu gün Qarabağ Müdafiə Ordusunun qərargahında keçirilən müşavirə zamanı biz hərbi əməkdaşlığın daha da dərinləşdirilməsi, həmçinin düşmənin qarşısını almaq mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı bir sıra məsələləri müzakirə etdik" - deyə "Facebook" səhifəsində bildirib. Bütün bunlar eyni zamanda beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamə və qərarlarına qarşı açıq hörmətsizlik xarakteri daşıyır.

Rusiyanın "Nezavisimaya qazeta" qəzeti yazır ki, Ermənistanın baş naziri Nikol Paşinyan avqustun sonunda Dağlıq Qarabağa səfər edib. Onun qondarma "respublika"nın prezidenti Araik Arutyunyanla görüşü keçirilib və tərəflər hərbi əməkdaşlığı müzakirə ediblər.

Bu, Ermənistan və Azərbaycan arasında davam edən hərbi qarşıdurma fonunda baş verib: toqquşmalar iyul ayındakı kimi kəskin olmasa da, vaxtaşırı atəş və təxribat xarakterli hücumlar baş verir. Bununla belə, səfər Azərbaycan tərəfi üçün həssas bir gündə - avqustun 30-da Qubadlı rayonunun işğalı günündə reallaşıb. Eyni zamanda Yerevan Rusiyanı və KTMT-nin digər ölkələrini öz tərəfindən münaqişəyə cəlb etməyə çalışır. Lakin bu günə qədər bu cəhdlər uğursuzluqla nəticələnib.

Xatırladaq ki, iyulun ortalarında Ermənistan-Azərbaycan dövlət sərhədində döyüşlər baş verib. Atışma bir neçə gün davam edib və çox sayda insan tələfatı ilə nəticələnib. İndi vəziyyət sakitləşib, amma gərginlik davam edir. Belə ki, Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirildiyi kimi, avqustun 23-ü səhər Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu cəbhə xəttini keçməyə cəhd göstərib. Rəsmi Bakının məlumatına görə, erməni təxribat qrupunun komandiri baş leytenant Qurgen Alaverdyan döyüş zamanı əsir götürülüb.

Paşinyanın Dağlıq Qarabağa səfərləri bu formatda dialoqa çətin ki, şərait yaradar. Onun özünün dolayı səbəbləri ola bilər. Koronavirus pandemiyası fonunda Ermənistandakı iqtisadi və siyasi vəziyyətin pisləşməsi hakimiyyət orqanlarını daxili problemlərdən diqqəti yayındırmaq üçün hücum xarakterli, daha kəskin xarici siyasət aparmağa məcbur edir. Hətta iş o yerə çatıb ki, Nikol Paşinyan vətəndaşları könüllülər dəstəsinə yığmaq kampaniyasına güclü start vermək və Azərbaycan torpaqlarını işğal etmək naminə heç nəyi əsirgəmədiyini əhaliyə göstərmək üçün həyat yoldaşı Anna Akopyanı rəmzi olaraq qoşunların təmas xəttinə göndərib. Anna Akopyan könüllülər dəstəsinə birinci olaraq yazılmaqla, Azərbaycanın döyüş mövqelərinə və dinc sakinlərinin yaşadığı kəndlərinə birinci olaraq atəş açmaqla, əslində, könüllülər dəstəsinə başçılıq edir. Bu, həm də o deməkdir ki, əgər baş nazir qadınları müharibəyə göndərməyə məcbur olubsa, deməli, kişilərə çox da ümid etmir.

Bununla bərabər, Ermənistanda ölkənin Milli Təhlükəsizlik Xidmətinin sabiq rəhbəri, müxalif "Vətən" partiyasının lideri Artur Vanetsyanın güclənməsi müzakirə olunur. Hesab edilir ki, o, Rusiyanın müəyyən dairələri tərəfindən dəstəklənir. Vanetsyan bu yaxınlarda erməni müxalifətinin geniş danışıqları barədə xəbər verib. Yeganə məqsəd Paşinyan hakimiyyətindən mümkün qədər tez yaxa qurtarmaqdır. Bütün bunlar qonşu respublika ilə münaqişədə getdikcə daha düşüncəsiz hərəkətlərə yol verən erməni rəhbərliyini açıq-aşkar qıcıqlandırır.

Hazırda Ermənistan cəmiyyətində müşahidə olunan əhvali-ruhiyyə ondan ibarətdir ki, münaqişə ilə bağlı Azərbaycanın mövqeyinə qarşı lüzumsuz müqaviməti uzatmağa ehtiyac yoxdur. Belə hesab edilir ki, Ermənistanın xaricdən asılılığını gücləndirən bu problemin həllinə mümkün qədər tez nail olmaq və bu yolla da ölkənin müstəqil dövlət statusunu qorumaq lazımdır. Həm Qarabağ ermənilərinin, həm də Ermənistan cəmiyyətinin münaqişənin həllinin uzanmasından narazılıq ifadə etməsi isə rəsmi Yerevanın mövqeyinə təsirsiz ötüşmür. Artan təzyiqlər fonunda artıq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsilə bağlı rəsmi Yerevan daha konstruktiv mövqe nümayiş etdirmək məcburiyyətindədir. Konstruktiv mövqe isə danışıqlar prosesində Azərbaycanın şərtlərini qəbul etmək və işğal olunmuş ərazilərdən Ermənistan hərbi qüvvələrini mümkün qədər tez çıxarmaqdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistan ordusunun bölmələri iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 57 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 57 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Novruzlu, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# REGİONLAR



## Orta tibb kadrları ilə təminat günün vacib məsələlərindəndir

Gələn il özünün 90 illiyini qeyd edəcək Gəncə Tibb Kolleci ötən müddət ərzində şərəfli yol keçmişdir. Kollecin hazırladığı orta tibb kadrları indi respublikamızın səhiyyə ocaqlarında əhalinin sağlamlığı keşiyində dayanaraq öz şərəfli missiyalarını uğurla yerinə yetirirlər. Azərbaycan müstəqilliyə qovuşduqdan sonra bu təhsil ocağı da yeni inkişaf dövrünə qədəm qoymuş və səhiyyənin müxtəlif sahələrini ixtisaslı orta tibb kadrları ilə təmin etməklə üzərinə düşən vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir.





Ötən dövr ərzində görülən işlərə nəzər salmaq və qarşıda duran vəzifələrin yerinə yetirilməsi vəziyyəti ilə yaxından tanış olmaq üçün kollecdə olduq. Kollecin direktoru, Əməkdar həkim Mehman Rzayev son bir neçə ildə burada görülən işlərdən danışdı. Məlum oldu ki, kollec tamamilə yenidən qurulub. Binalar əsaslı şəkildə təmir edilib. Uzun illər bərbad vəziyyətdə olan binaların dam örtüyü dəyişdirilib, qapı-pəncərələr təzələnib, tədris otaqları yenidən qurularaq lazımi inventarla təmin edilib.

Kollecdə mərkəzləşdirilmiş istilik sistemi quraşdırılmış, 80 tonluq yeraltı su anbarı tikilmişdir. Kollecin həyətində idman meydançası yaradılmış, yaşıllıq sahəsi genişləndirilmişdir. Əvvəllər bərbad vəziyyətdə olan laboratoriyalar tamamilə yenidən qurularaq müasir tədris avadanlıqları, smart lövhələrlə təmin edilmişdir. Təhsil müəssisəsində 30 minə yaxın fondu olan elektron kitabxana tələbələrin ixtiyarına verilmişdir. Cari ildən ilk dəfə olaraq ortopedik stomatologiya, diaqnostik laboratoriya və profilaktik tibb bacısı ixtisasları üzrə mütəxəssislərin hazırlanmasına başlanılmışdır.





Gəncə Tibb Kolleci 1931-ci ildə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının qərarı ilə ilk orta ixtisas tibb politexnikumu kimi yaradılmışdır. Sonradan feldşer-mama məktəbinə çevrilmişdir. 1939-cu ildən N.K.Krupskaya adına Baza Tibb Məktəbi, 1989-cu ildən Gəncə Tibb Məktəbi, 2010-cu ilin iyun ayından isə Gəncə Tibb Kolleci adlandırılmışdır. Kollec dövlət statuslu təhsil müəssisəsidir. Burada müalicə işi, mamalıq işi, tibbi profilaktika, laborator diaqnostika, ortopedik stomatologiya, əczaçılıq və tibb bacısının işi ixtisasları üzrə kadrlar hazırlanır. Kollecdə 730 nəfər tələbə təhsil alır və onlara 88 nəfər təcrübəli müəllim dərs deyir. Fəaliyyət göstərdiyi 90 ildə burada respublikamızın səhiyyə müəssisələri üçün on minlərlə orta ixtisas tibb işçiləri hazırlanmışdır. Bundan başqa, kollecdə orta təhsilli tibb işçiləri üçün ixtisasartırma və təkmilləşdirmə kursları fəaliyyət göstərir.

Kollecdə demək olar ki, tədris prosesi müasirləşdirilib. Belə ki, müəllimlər tərəfindən 7 ixtisas və tədris olunan 76 fənn üzrə mühazirə və təcrübə mövzuları kompüterin yaddaşına yazılıb və CD disklərə köçürülüb tələbələrin istifadəsinə verilib. Mühazirələr tədricən təzələnərək müasir elmi yeniliklər, illüstrasiya, o cümlədən hərəkətli görünüşlərlə zənginləşdirilib. Dərs vəsaitlərindən və CD disklərindən nəinki tələbələr, hətta səhiyyə sahəsində çalışan orta tibb işçiləri də istifadə edirlər. Tətbiq olunan sürətli internet vasitəsilə müəllimlər və tələbələr müxtəlif ölkələrin təcrübəsi barədə də məlumat əldə edə bilirlər.

Kollecdə maddi-texniki baza daim möhkəmləndirilir. İxtisas fənləri üzrə təcrübə dərsləri təkcə kollecin kabinet və laboratoriyalarında deyil, Səhiyyə Nazirliyinin əmri ilə kollecin tədris bazası sayılan bir sıra klinik xəstəxanalarda, doğum evlərində də tədris olunur.

Hazırda bütün dunyanı bürümüş pandemiya Azərbaycanda da hökm sürür. Dövlət başçısının diqqət və qayğısı ilə bu dəhşətli virusdan qorunmaq və yoluxmanın minumuma endirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Qərargahın təhsil müəssisələrinin fəaliyyətinə qoyduğu məhdudiyyətlə əlaqədar Gəncə Tibb Kollecində də tələbələr üçün tədris prosesi onlayn formada təşkil olunmuşdur. İxtisaslar üzrə bütün qrupların tələbələri üçün müəllimlər tərəfindən onlayn dərslər keçirilmiş, hətta yaz imtahanlarının sualları bütün tələbələrə internet vasitəsilə çatdırılmışdır. Onlara imtahanlara hazırlaşmaq üçün lazım olan hər cür şərait yaradılmışdır. İmtahanların gedişinə kollecin rəhbərliyi xüsusi nəzarət etmişdir. Bundan başqa, hər hansı texniki səbəbdən distant təhsildən kənarda qalan tələbələr üçün əlavə imtahanlar da təşkil olunmuşdur.

İmtahanların şəffaflığı üçün isə bir çox tədbirlər həyata keçirilmişdir. Onlardan biri kollec rəhbərliyinin imtahan dövründə tələbələrlə onlayn görüş keçirməsidir. Bu görüşlər zamanı tələbələrin qaldırdıqları məsələlər kollec rəhbərliyinin iştirakı ilə müzakirə olunmuş və öz həllini tapması üçün tədbirlər görülmüşdür. Nəzərə alınsa ki, kollec tələbələrinin çox hissəsi Azərbaycanın müxtəlif şəhər və rayonlarında yaşayır və bəzi regionlarda internet üzərindən bağlantılarda bəzi çətinliklər yaranır, belə problemlərin həlli üçün də çıxış yolları müəyyənləşdirilmişdir. Məsələn, bəzi fənlər üzrə onlayn ictimai dərslər yenidən tədris olunmuş və növbəti onlayn imtahanlar keçirilmişdir.

Gələn il kollecin fəaliyyətə başlamasının 90 ili tamam olacaq. Kollektiv yubileyi işdə qazandıqları uğurlarla qeyd etmək üçün bütün qüvvələrini səfərbər etmişdir. İstər müəllimlər, istərsə də tələbələr bu qocaman təhsil ocağının yubileyini layiqli göstəricilərlə qarşılamağı qarşılarına məqsəd qoymuşlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Tovuzun Ağdam kəndində qazlaşdırılmamış evlər qazlaşdırılır



**Bu il iyul ayının 12-dən başlayaraq Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində yaşayış məntəqələrinin düşmən tərəfindən iriçaplı silahlardan və ağır artilleriya qurğularından intensiv atəşə tutulması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə ciddi ziyan dəymişdir.**

Mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı dövlət səviyyəsində operativ tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Bu məqsədlə dövlət başçısının müvafiq sərəncamları ilə lazımi işlərin görülməsi üçün vəsait ayrılmışdır.

Hazırda rayonun atəşə məruz qalmış yaşayış məntəqələrinin, o cümlədən təmas xəttində yerləşən sərhəd kəndlərinin əhalisinin sosial ehtiyaclarının ödənilməsi istiqamətində tədbirlər davam etdirilir. Ayrı-ayrı xidmət sahələri üzrə sakinlərin ehtiyacları öyrənilir və onların həlli istiqamətində iş aparılır.

Bu günlərdə "Azəriqaz" İstehsalat Birliyinin Şəmkir Regional Qaz İstismarı İdarəsinin əməkdaşları Tovuzun Ağdam kəndində qaz təsərrüfatının mövcud vəziyyətini yaxşılaşdırmağa başlamışlar. Belə ki, kənddə qazlaşdırılmamış fərdi evlər qazlaşdırılır. Qısa vaxt ərzində diametri 57 millimetr olan borularla 1500 metrə yaxın xətt çəkilmişdir.

Dövlətin həmişə vətəndaşının yanında olması, insanlara göstərilən diqqət və qayğı yerli sakinlər tərəfindən razılıqla qarşılanır.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***



## Biləsuvarda yeni pambıq emalı zavodu tikilir

Respublikamızda pambıq istehsalı çoxaldıqca, emal müəssisələrinə də tələbat artır. Bu işlə məşğul olan şirkətlər ya balanslarındakı belə müəssisələri yenidən qurur, ya da yenisini inşa edirlər. "P-Aqro" MMC-nin Biləsuvar filialı "ağ qızıl" yetişdirilməsi və tədarükü ilə məşğul olan yeni şirkətdir, daha dəqiq desək, 2017-ci ildə yaradılmışdır.





Filial icarədarlar və fermerlərlə yaxşı işbirliyi qurmaq sayəsində yüksək nəticələr əldə etmişdir. O, sahibkarları toxum, texnika, mineral gübrələr, ziyanvericilərə qarşı müxtəlif dərmanlarla təchiz edir. Filialın mütəxəssisləri əkinçilərlə sıx əlaqə saxlayır, onları maarifləndirir, lazımi tövsiyələri verirlər. İstehsalçı təhvil verdiyi pambığın pulunu ən geci bir günə almağa müvəffəq olur. Bunlar isə insanları daha yaxşı işləməyə, daha çox məhsul yetişdirməyə ruhlandırır.

"P-Aqro" üzrə istehsalın ilbəil artması şirkət qarşısında yeni tələblər qoymuşdur. 2018-ci ildə rayonlarda pambıq qəbulu məntəqələri inşa edildi. Amma bu, məsələnin tam həlli demək deyildi. "P-Aqro" xam pambığı emal etmək üçün digər şirkətlərə müraciət etmək məcburiyyəti qarşısında qalırdı ki, bu da müəssisəyə baha başa gəlirdi. Biləsuvar, Salyan, Neftçala rayonlarından məhsul aylarla Saatlı, Sabirabad və digər yerlərə daşınırdı. Lafetlərlə həyata keçirilən daşınma işi yol hərəkətində müəyyən risk də yaradırdı. Bu problemlər artıq arxada qalmaq üzrədir. Belə ki, hazırda "P-Aqro" şirkəti Biləsuvar rayonunda yeni emal zavodu tikir.



6 hektar ərazisi olan müəssisənin inşasına iyun ayında başlanılmışdır. Yüngül konstruksiya ilə tikilən zavodda ay ərzində 6 min ton xam pambıq emal ediləcək. Burada emal sexi, pambıq tayaları üçün ayrılmış 12 xüsusi sahə, yanğına qarşı, habelə istifadə üçün hər biri 50 kubmetr olan 2 su hovuzu, 1 ədəd elektron qapan, elektrik enerjisi təminatından ötrü transformator, hazır məhsullar və digər mal-materiallar üçün anbarlar, fəhlə yeməkxanası, buraxılış məntəqəsi, inzibati bina və s. olacaq. Magistral şose yolunun yaxınlığında tikilən zavoda asfalt yol çəkiləcək. Tikintidə istifadə olunanlar əsasən yerli materiallardır. Lakin dəzgah və avadanlıqlar qardaş Türkiyə istehsalı olacaq. Həmin avadanlıqların 90 faizi artıq gətirilmişdir. Onu da qeyd edək ki, koronavirus pandemiyası səbəbindən tikinti işləri bir ay yubanmışdır.

Hazırda tikintidə işlər sürətlənib. İnşaatçılar çalışırlar ki, zavod cari ilin məhsulunu emal etmək üçün hazır olsun.

"P-Aqro" MMC-nin nümayəndəsi Elcan Məhərrəmovun dediyindən məlum oldu ki, türkiyəli mütəxəssislər sentyabrda avadanlıqların quraşdırılması işlərinə başlayacaqlar. "Agah qrup" MMC-nin inşa etdiyi zavodun bu il noyabr ayının 1-də istifadəyə verilməsi planlaşdırılır. Hazırda tikintidə 30 nəfər işçi çalışır. Müəssisə işə düşdükdən sonra Biləsuvar, Salyan, Neftçala rayonlarından, habelə ehtiyac olarsa, qonşu İmişli, Beyləqan və Füzulidən də xam pambıq qəbul edəcək. Zavod istifadəyə veriləndən sonra burada əsasən Biləsuvardan olmaqla 120 nəfər işçi çalışacaq.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Biz birlikdə güclüyük!

# Gələcək uğurlara hədəflənən düzgün strategiya




Əvvəli 1-ci səh.

Artıq neçə müddətdir ki, yoluxma hallarının sayı 100 civarında, bəzən isə ikirəqəmli həddə olur. Əldə olunan müsbət dinamika yumşalmalara sürətli keçidi də təmin edib. Avqustun 5-dən start götürən yumşalmaların növbəti mərhələsinin isə ötən gündən etibarən tətbiqinə başlanılıb.

Belə ki, sentyabrın 8-dən ölkədə karantin rejimi ilə bağlı bir sıra məhdudiyyətlər aradan qaldırılıb. Restoranların daxildə xidmət göstərmələrinə icazə verilib. Həmçinin ictimai iaşə müəssisələri gecə saat 00:00-a qədər fəaliyyət göstərə biləcək. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyət də götürülüb. Lakin avtobus və qatar ilə şəhərlərarası sərnişin daşımaya tətbiq edilən qadağa hələ də qüvvədədir. Yəni vətəndaşlar yalnız şəxsi avtomobilləri ilə bölgələrə gedib-gələ biləcəklər.

### 2020-2021-ci dərs ilinə aid əsas və uyğunlaşdırılmış tədris planları təsdiq edilib

Pandemiya dövründə bütün dünyada ən çox narahatlığa və müzakirələrə səbəb olan məsələlərdən biri təhlükəli şəraitdə təhsil müəssisələrinin necə fəaliyyət göstərməsi ilə bağlı idi. Sevindirici haldır ki, ölkəmizdə sözügedən məsələ ilə bağlı yaranan suallar öz cavabını tapıb və Bilik günündə təhsil müəssisələrimizin pandemiya qaydalarına uyğunlaşdırılmış formada fəaliyyətə başlayacağı gözlənilir.

Artıq ümumtəhsil məktəbləri üçün 2020-2021-ci dərs ilinə aid əsas və uyğunlaşdırılmış tədris planları, "Tədris planlarına dair qeydlər" Təhsil nazirinin müvafiq əmri ilə təsdiq edilib.

Təhsil Nazirliyindən verilən məlumata görə, əmrə əsasən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrinin fəaliyyəti əyani formada həftədə 2 dəfə, digər şəhər və rayonların ümumi təhsil müəssisələrinin fəaliyyəti isə əyani formada həftədə 3 dəfə tətbiq edilməklə tədris planlarına müvafiq təşkil olunacaq. Ümumi təhsil müəssisələrində dərs məşğələləri I-IV siniflərdə sentyabrın 15-dən əyani və distant (məsafədən), V-IX siniflərdə sentyabrın 15-dən distant, oktyabrın 1-dən əyani və distant (məsafədən), X-XI siniflərdə sentyabrın 15-dən distant, oktyabrın 15-dən əyani və distant (məsafədən) formalarda başlayacaq.

Dərslər epidemioloji vəziyyətdən və məktəbdə şagird sıxlığından asılı olaraq müəyyən edilmiş qaydada təşkil ediləcək. Həmçinin dərs cədvəllərinin tərtibatı təhsil müəssisələri tərəfindən həyata keçiriləcək. Valideynlər övladlarının hansı formada təhsilə cəlb olunması ilə bağlı seçim edə biləcəklər. Eləcə də ibtidai sinif şagirdlərinin valideynləri sentyabrın 11-dən övladlarının əyani tədrisə cəlb olunmaları ilə bağlı məlumatı birbaşa təhsil müəssisələrindən əldə edə biləcəklər. Ümumi orta və tam orta təhsil səviyyələrində oxuyan şagirdlərin də virtual dərs cədvəlləri həmin tarixdən müəyyənləşəcək.

### Virtual dərslərə ciddi nəzarət olunacaq

Təhsil Nazirliyinin şöbə müdiri Vəfa Yaqublu bildirib ki, virtual dərslərə ciddi nəzarət olunacaq. Məktəblərdə şagird sıxlığı müxtəlif üsullarla tənzimlənəcək. Belə ki, sinif komplektlərinin müxtəlif vaxtlarda məktəbə gəlməsi təklif olunur: "Siniflərin yarısı həftənin 3 günü, digər yarısı isə 3 günü gələ bilərlər. Məktəblərə növbəli dərs rejiminə keçmək təklif olunur. Şagirdlər hətta 3 növbədə də gələ bilərlər".

Şöbə müdiri məlumat verib ki, sinif daxilində 1,5 metr ara məsafəsi saxlanılmalıdır: "Əgər bu sıxlıq həmin məsafəni qorumağa imkan verməsə, sinif qruplara bölünəcək, onların hər biri üçün ayrıca dərs cədvəli hazırlanacaq. Bu zaman əsas sual budur ki, müəllimin dərs yükü çoxalacaqmı? Əyani dərslər üçün dərs miqdarı iki yarımqrup arasında yarı bölünəcək".

Təhsil Nazirliyinin şöbə müdiri onu da qeyd edib ki, virus riskindən qorxaraq övladlarını məktəbə göndərməyə ehtiyat edən valideynlərin mənafeləri nəzərə alınıb: "Belə valideynlər məktəb rəhbərliyinə yaxınlaşaraq xüsusi iltizam formasına qol çəkməlidirlər. Bu, məlumatlandırma və öhdəliklər haqqında xüsusi formadır. Valideyn bu formanı imzalamaqla öz öhdəliklərini təsdiqləmiş olur. Öhdəliklərdə şagirdlərin virtual dərslərdə iştirakına, teledərslərə baxmasına, müəllim tərəfindən verilən tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməsinə, məktəbdə müntəzəm keçiriləcək kiçik və böyük summativ qiymətləndirmələrdə (KSQ və BSQ) iştirakına təminat verilir. Valideyn bu öhdəliklərə imza atmaqla övladının əyani dərslərdə iştirakından imtina edə bilər. Öhdəliklərə əməl edilməsə, bu cür şagirdlər biliyi qiymətləndirilməyənlər kateqoriyasına aid ediləcək və sinifdə qalmaq təhlükəsi ilə üzləşəcəklər".

Mərkəzi Neftçilər Xəstəxanasının həkim-infeksionisti Fərrux Sədirov isə müsahibəsində söyləyib ki, qabaqcadan görülən tədbirlər - sosial məsafənin saxlanılması, dərs saatlarında sıxlığın və sinif otaqlarında şagirdlərin sayının azaldılması, tənəffüs vaxtının 15-20 dəqiqə deyil, 5-10 dəqiqə olması, respirator və şəxsi gigiyena qaydalarına əməl olunması, məktəb daxilində buna nəzarət sistemi kimi amillər yoluxma tendensiyasının qarşısını ala bilər: "Valideynlərə payız-qış mövsümündə, respirator xəstəliklərin artdığı vaxtda evdən çıxmadan və evə daxil olarkən heç nəyə toxunmadan övladlarının əllərini yumasını təmin etmək tövsiyə olunur. Maarifləndirmə tədbirlərinin aparılmasının çox böyük əhəmiyyəti var. Uşaqlara məktəblərdə hər zaman nəzarət etmək mümkün olmadığı üçün onlara yoluxma yolları və ondan qorunmaq üçün qaydalara əməl olunması aşılanmalıdır. Bunlara əməl etdikdə onlar özlərini qoruya bilərlər".

### ÜST və UNICEF-in koronavirusa qarşı tibbi maskaların hansı yaşdan istifadə olunmasına dair tövsiyələri var

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, sentyabrın 15-dən Bakı şəhəri üzrə fəaliyyət göstərən dövlət və özəl uşaq bağçalarının da açılmasına icazə verilib. Müvafiq hazırlıq və tibbi-profilaktik tədbirlərdən sonra epidemioloji vəziyyətə uyğun olaraq 1 oktyabr tarixədək bağçaların tam açılması nəzərdə tutulur.

Bakı Şəhər İcra Hakimiyyətindən bildirilib ki, uşaq bağçalarının fəaliyyəti ancaq mövcud vəziyyət nəzərə alınmaqla, müvafiq sanitar-gigiyenik normalara əməl edilməklə mümkündür.

Məlumata görə, bu müəssisələrin mətbəx və sanitariya qovşaqlarında mütəmadi olaraq dezinfeksiya işləri aparılacaq. Hər bir bağçanın girişində xüsusi dezinfeksiyaedici məhlullar qoyulacaq. Hər gün bağçaya gələn işçi heyətin və uşaqların temperaturu ölçüləcək, tərbiyəçilər tez-tez valideynlərlə əlaqə saxlayacaq. Paytaxtın bütün uşaq bağçaları fəaliyyətə başladıqdan sonra xüsusi karantin rejiminin tələblərinə uyğun müəyyən edilən qaydalar çərçivəsində işləyəcək bu müəssisələrdə sanitar-gigiyena və karantin qaydalarının tələblərinə ciddi əməl olunmasına nəzarət Bakı Şəhər İcra Hakimiyyəti və Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin əməkdaşları tərəfindən həyata keçiriləcək.

Onu da bildirək ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və BMT-nin Uşaq Fondu (UNICEF) koronavirusa qarşı tibbi maskaların hansı yaşdan istifadə olunmasına dair tövsiyələrini açıqlayıb. Tövsiyələrə görə, pandemiya ilə əlaqədar 5 yaşdan kiçik uşaqlara maska taxılması tələb olunmamalıdır. Qeyd olunub ki, bu, uşağın təhlükəsizliyinə, ümumi maraqlara, eləcə də maskanı lazımi qaydada istifadə etmək qabiliyyətinə əsaslanır. ÜST və UNICEF 6-11 yaşlarında olan uşaqlar üçün bir neçə amili nəzərə almağı tövsiyə edir. Burada söhbət maskadan etibarlı və düzgün istifadə etməkdən gedir. Adıçəkilən təşkilatlar maskadan 12 yaşdan yuxarı uşaqların istifadəsini tövsiyə edir.

**_Yasəmən MUSAYEVA, "Azərbaycan"_**

# Aprel və İyul döyüşləri şəhidlərinin övladları həmkarlar ittifaqları tərəfindən himayəyə götürülüb

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası İcraiyyə Komitəsinin qərarına əsasən, 2016-cı ilin Aprel və 2020-ci ilin İyul döyüşləri zamanı Vətən uğrunda şəhid olmuş hərbçilərin 18 yaşına qədər olan övladları həmkarlar ittifaqları tərəfindən himayəyə götürülüb. Bu qərara əsasən, 23 şəhidin 41 övladı himayəyə götürülmək üçün qeydə alınıb.

Konfederasiyanın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 7-də Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) Respublika Komitəsinin tapşırığı ilə xidmət əhatəsində olan Qazax Rayon Komitəsinin nümayəndələri Tovuz istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə yüksəlmiş mayor Əhmədov Namiq Hajan oğlunun məzarını ziyarət edib, şəhidin ailəsinə baş çəkib və onun ailə üzvləri ilə həmsöhbət olublar. Şəhidin ailə üzvləri Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının İcraiyyə Komitəsinin "Ermənistan Respublikasının Azərbaycana qarşı törətdiyi təcavüz və təxribatlarla əlaqədar 2016-cı il aprelin 2-5-də və 2020-ci il iyulun 12-14-də döyüş tapşırıqlarını yerinə yetirərkən şəhid olmuş hərbi qulluqçuların uşaqlarının AHİK-in üzv təşkilatları tərəfindən himayəyə götürülməsi haqqında" 2020-ci il 13 avqust tarixli qərarı ilə tanış ediliblər.

Qərara əsasən, şəhid mayor Namiq Əhmədovun iki azyaşlı övladı - 6 yaşlı Nigar və 10 yaşlı Məhəmməd Əhmədovlar 18 yaşa çatanadək Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin himayəsinə götürülüb və hər ay onların hər birinə 150 (bir yüz əlli) manat yardım ediləcək.

Qeyd olunan vəsait artıq sentyabrın 1-də MİHİ Respublika Komitəsi tərəfindən həyata keçirilib.

Bundan əlavə, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax Rayon Komitəsi tərəfindən şəhid ailəsinə bir sıra məişət avadanlıqları hədiyyə edilib. Həmçinin ailənin bu il ilk dəfə məktəbə gedəcək qız övladı Nigara və məktəbli Məhəmmədə zəruri məktəb ləvazimatları verilib.

## Beynəlxalq aləm

### ÜST rəhbəri növbəti pandemiyaya hazırlaşmağa çağırıb




"Koronavirus pandemiyası bu qəbildən olan son epidemiya deyil və cəmiyyət gələcək pandemiyaya daha yaxşı hazırlaşmalıdır", - deyə Dünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus bildirib. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Məlumata görə, ÜST rəhbəri bununla bağlı deyib: "Tarix bizi epidemiyalar və pandemiyaların həyatın bir hissəsi olduğunu öyrədir. Amma yeni pandemiya gəldikdə, dünya ona indikindən daha yaxşı hazırlaşmalıdır".

ÜST koronavirus pandemiyası barədə təxminən yarım il əvvəl - martın 11-də elan verib. May ayında Qebreyesus təşkilatın gözlənilən pandemiyaya vaxtında reaksiya verdiyini iddia edib. ÜST rəhbərinin dediyinə görə, təşkilat hələ yanvar ayında fövqəladə vəziyyət barədə xəbərdarlıq edib və dünyanın "müdaxilə etmək üçün kifayət qədər vaxtı olub".

### Nigeriyada insan alverçilərinin əlindən 47 uşaq xilas olunub



Nigeriyanın Osun əyalətində 3 yaşından 10 yaşınadək oğurlanan 47 uşağı xilas etmək üçün insan alverçilərinə qarşı əməliyyat həyata keçirilmişdir. Nəticədə 3 yaşından 10 yaşınadək oğurlanan 47 uşağı xilas etmək mümkün olmuşdur.

Onlar "uşaq fabriki" adlı yerdə saxlanılırdı.

Əyalətin Qadın, Uşaq və Sosial məsələlər idarəsinin nümayəndəsi Olubukola Olaboo-ponun dediyinə görə, uşaqların azad edilməsi üzrə əməliyyat İle- İfe şəhərində növbəti uşaq itdikdən sonra başlamışdır.

Təhlükəsizlik qüvvələri qonşu ölkələrə satılan uşaqların saxlanma yerini müəyyən edə bilib.

İki nəfər saxlanılıb.

Oxşar əməliyyat 2020-ci ilin fevral ayında Nigeriyanın Kross River federal əyalətində həyata keçirilmişdir. O zaman 25 uşaq və altı hamilə qadın insan alverçilərinin əlindən azad edilmişdi.

### Türkiyədə "Yıldırım" əməliyyatının onuncu mərhələsi başlayıb



Sentyabrın 8-də Türkiyənin Van əyalətinin şərqində "Yıldırım" antiterror əməliyyatının onuncu mərhələsinə start verilib. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, əməliyyatda 1040 polis və jandarma əməkdaşı iştirak edir.

Daxili İşlər Nazirliyindən bildiriblər ki, "Yıldırım" əməliyyatının müxtəlif mərhələləri çərçivəsində indiyədək PKK-nın 46 döyüşçüsü zərərsizləşdirilib. Əməliyyatın məqsədi ölkənin şərqində və cənub-şərqində terrorçuları aşkar etmək və zərərsizləşdirməkdir.

### Birləşmiş Ərəb Əmirlikləri Marsda insanın yaşayacağı baza yaratmağı planlaşdırır



Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Marsa göndərilən "Hope Probe" zondu Qırmızı planetin orbitində radiasiyanın səviyyəsini ölçüb.

AZƏRTAC xəbər verir ki, Əbu-Dabi Nyu-York Universitetinin alimləri bu tədqiqata əsasən bir daha təsdiq ediblər ki, kosmik fəzada astronavtların məruz qaldıqları radiasiyanın səviyyəsi onkoloji xəstənin radioloji müalicəsində aldığı şüanın təsiri qədərdir.

Universitetin professoru Dimitra Atri jurnalistlərə müsahibəsində deyib ki, Marsda radiasiyanın səviyyəsi dəqiqliklə müəyyən edildikdən sonra BƏƏ uzaq gələcəkdə bu planetdə kiçik baza salınması layihəsini həyata keçirə bilər. Bu planın reallaşması Qırmızı planetə enəcək ilk astronavtların hansı səviyyədə radiasiyaya məruz qalacağından asılı olacaq. O, əlavə edib ki, Marsın səthinə enəcək ilk astronavtların qalaktik şüalanma və Günəşdə baş verən parlayışların təsiri ilə artan radiasiyadan qorunması məqsədilə xüsusi texnoloji avadanlıq da hazırlanır.

BƏƏ-nin universitetlərində çalışan alimlər kosmik fəzada, o cümlədən Marsda radiasiyanın tədqiqi, onun təsirinin zəiflədilməsi üzrə ABŞ, Avropa və digər ölkələrin tədqiqat mərkəzləri ilə təcrübə mübadiləsi aparacaqlar. Bu ölkədə 2017-ci ildə elan edilmiş Mars strategiyası çərçivəsində 100 ildən sonra, yəni 2117-ci ildə Qırmızı planetdə insanın yaşayacağı ilk bazanın yaradılması da nəzərdə tutulur. Layihə Yerdən insanların Marsa daha tez müddətdə çatdırılması, orada kiçik evlərin tikilməsi, enerji və ərzaq istehsalını da ehtiva edir. Bu məqsədlə Beynəlxalq Kosmik Stansiyada xüsusi laboratoriya da yaradılacaq.

NASA-nın planetar elmlər departamentinin direktoru Lori Qleyz də BƏƏ alimlərinin Marsda baza yaradılmasına dair planını alqışlayıb, Amerika astronomlarının onlarla sıx əməkdaşlıq edəcəyini deyib.

### Pakistanda mərmər mədənində qəza nəticəsində 12 nəfər həlak olub

Pakistanın şimal-qərbində mərmər mədəninin çökməsi nəticəsində ən azı 12 nəfər həlak olub, 6 nəfər xəsarət alıb, bir neçə şaxtaçı isə hələ də dağıntılar altındadır. AZƏRTAC Geo.tv telekanalına istinadla xəbər verir ki, insident Xeybər-Pahtunhva əyalətinin Mohmand dairəsində qeydə alınıb. Hazırda hadisənin baş verdiyi ərazidə xilasedicilər fəaliyyət göstərir. Onlar mədəndən 12 nəfərin cəsədini və 6 yaralını çıxarmağa müvəffəq olublar. Dağıntılar altında qalan doqquz şaxtaçının taleyi barədə hələ ki məlumat yoxdur, onların axtarışı davam edir.

Yerli polis idarəsinin nümayəndəsi hadisə nəticəsində ölənlərin sayının artacağını istisna etmir. Bu səbəbdən axtarış əməliyyatına xüsusi texnikanın cəlb olunması və insidentin baş verdiyi əraziyə əlavə xilasedici dəstələrin göndərilməsi planlaşdırılır.

# "Made in Azerbaijan" brendi pandemiya şəraitində də nüfuzunu artırır

Əvvəli 1-ci səh.




Son bir il ərzində dünya bazarında xam ipəyin qiymətində əsasən azalma trendi müşahidə olunmuşdur. Cari ilin iyul ayında 1 ton xam ipəyin qiyməti isə əvvəlki aya nisbətən 4,72 faiz ucuzlaşaraq 39,2 min dollar olmuşdur. Quru baramanın qiyməti də keçən ilin iyul ayı ilə müqayisədə xeyli aşağıdır. Eləcə də 2017-2019-cu illər ərzində zeytun yağı dünya bazarında əvvəlki illərə nisbətən xeyli ucuz satılmışdır. Lakin bu ilin əvvəlində zeytun yağının qiymətində davam edən ucuzlaşma fevral ayından artım ilə əvəz olunmuşdur - 2020-ci ilin iyul ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki ay ilə müqayisədə 1,06 faiz bahalaşaraq 2,87 min dollara çatmışdır.

Qiymətlərin qeyri-müəyyən, bəzən də xaotik dəyişməsi qismən pandemiya dövründə ortaya çıxan çətinliklərlə bağlıdır. Belə ki, işçi qüvvəsinin çatışmazlığı, yolların bağlanması, sərhədlərin qapanması, yükdaşımaların kəskin azalması və digər amillər bütünlükdə aqrar sektorda proqnozlaşdırılması mümkün olmayan çətinliklər yaratmışdır. Gözlənilməz çətinliklər, həlli mümkünsüz olan problemlər aqrar sektorda bir sıra fəsadlara rəvac vermişdir.

Belə bir vəziyyətdə Azərbaycanda kənd təsərrüfatı məhsullarının fasiləsiz istehsalı üçün ciddi tədbirlər görülmüş, fermerlərin, torpaq sahiblərinin normal fəaliyyəti üçün bütün lazımi tədbirlər həyata keçirilmişdir. İstehsal edilən məhsullar yerli və xarici bazarlara sürətlə çatdırılmışdır. Nəticədə 2020-ci ilin 7 ayı ərzində meyvə-tərəvəz ixracı 359,6 milyon, pambıq lifi ixracı 71,6 milyon, pambıq ipliyi ixracı 10,6 milyon, şəkər ixracı 9,3 milyon, bitki, heyvan mənşəli piy və yağların ixracı 13,7 milyon, çay ixracı 5,5 milyon dollar dəyərində olmuşdur. Faktiki olaraq Azərbaycan məhsullarının ixracının artması, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi, "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində ilboyu görülən işlər müsbət nəticəsini vermişdir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev də son illər qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar, qeyri-neft məhsullarının ixracı və dəstəklənməsi, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması və xarici investisiyaların təşviqi istiqamətində zəruri addımların atıldığını bildirir. Onun sözlərinə görə, cari ilin əvvəlindən Azərbaycan şirkətləri Almaniyada "Beynəlxalq Yaşıl Həftə 2020", Rusiyada "Prodexpo 2020", BƏƏ-də "Gulfood 2020" sərgilərində iştirak etmiş, Azərbaycan məhsulları "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş olunmuşdur.

Hazırda İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə yerli şirkətlər cari il sentyabrın 22-25-də Moskvada keçiriləcək "Worldfood 2020" beynəlxalq ərzaq sərgisində iştirak etməyə hazırlaşırlar. Sərgidə nar şirəsi, fındıq, şərab və digər spirtli içkilər, meyvə və tərəvəz, mineral sular, qənnadı və un məmulatları, çay, mürəbbə, kompot, limonad, meyvə quruları kimi qida məhsulları "Made in Azerbaijan" vahid ölkə stendində sərgi ziyarətçilərinə təqdim olunacaq. Azərbaycan şirkətləri artıq 4-cü dəfədir ki, bu sərgidə öz məhsullarını nümayiş etdirəcəklər.

"Worldfood 2020" beynəlxalq ərzaq sərgisində iştirak qeyri-neft sektorunun ixrac coğrafiyasının genişləndirilməsi, məhsullarımızın xarici bazarlara ixracının artırılması, ənənəvi Rusiya bazarında mövqeyinin möhkəmləndirilməsi, Azərbaycan sahibkarlarının xarici iş adamları ilə əlaqələrinin daha da gücləndirilməsi baxımından xüsusilə əhəmiyyətlidir. Bundan əlavə, 2020-ci ilin sonunadək Azərbaycan sahibkarlarının Şanxay şəhərində keçiriləcək "3-cü Çin beynəlxalq idxal" ərzaq sərgisində iştirakı da nəzərdə tutulur.

Göründüyü kimi, ölkəmizdə aqrar sektoru təmsil edən qurumlar pandemiya şəraitində fəaliyyətlərinə nəinki ara verir, əksinə, "Made in Azerbaijan" brendinin nüfuzunun gücləndirilməsi istiqamətində zəruri addımlar atırlar. Onu da qeyd edək ki, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə indiyədək Azərbaycan şirkətlərinin xarici ölkələrə 33 ixrac missiyası təşkil olunmuş, yerli məhsullar 33 beynəlxalq sərgidə vahid ölkə stendində təqdim edilmişdir. Bu ilin yanvar-avqust aylarında ixrac təşviqinin ödənilməsi ilə bağlı daxil olan müraciətlər əsasında 80 sahibkarlıq subyektinə 6,3 milyon manatdan çox ixrac təşviqi ödənilmişdir. Ümumilikdə isə, indiyədək sahibkarlara 23,2 milyon manatdan artıq ixrac təşviqi verilmişdir. Məhz belə düşünülmüş addımlar aqrar sektorun inkişafını təmin edir, Azərbaycan brendinin formalaşmasında, yeni bazarlara çıxmasında ciddi rol oynayır.

**_Bahadur İMANQULİYEV, "Azərbaycan"_**

# Azərbaycanda koronavirus infeksiyasından 128 nəfər sağalıb, 139 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 128 nəfər müalicə olunaraq sağalıb, 139 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 37 min 557 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 34 min 965 nəfər müalicə olunaraq sağalıb, 552 nəfər vəfat edib. Aktiv xəstə sayı 2040 nəfərdir.

Ötən müddət ərzində 973 min 838 test aparılıb. Dünənki test sayı isə 6798-dir.



# "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**LOT - "BTR" MMC-nin Rabitə xidmətləri mərkəzlərinin EATS-lərində quraşdırılması üçün tələb olunan sənaye tipli kondisionerlərin açıq tender üsulu ilə satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 - 300 (üç yüz) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" portalı vasitəsilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **30 sentyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **08 oktyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **09 oktyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

***Tender komissiyası***

# AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# «AzerGold» QSC-nin cari ilin 8 ayı üzrə əldə etdiyi iqtisadi nəticələr yüksəkdir



"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) fəaliyyətə başladığı gündən etibarən bir çox istiqamətlər üzrə əhəmiyyətli irəliləyişlərə və böyük uğurlara nail olmuşdur. Ölkənin qeyri-neft sektorunda dağ-mədən sənayesini uğurla təmsil edən "AzerGold" QSC-nin cari ilin 8 ayı ərzindəki fəaliyyəti bütün sahələr üzrə yüksək artım göstəriciləri ilə nəticələnmişdir.

Cəmiyyət tərəfindən ötən 8 ayda əsas satış məhsulu olan qızıl üzrə nəzərdə tutulmuş plandan 4 752 unsiya daha çox olmaqla ümumilikdə 39 312 unsiya qızıl hasil edilmişdir. Bu, faizlə ifadə etsək, hasilat üzrə planla müqayisədə 14 faiz artım deməkdir. Bu hasilat göstəriciləri istehsalatda həyata keçirilən optimallaşdırma işləri və müasir texnoloji metodologiyaların tətbiqi sayəsində əldə edilmişdir.

Cari ilin 8 ayında qeyri-neft sektoru üzrə ixrac olunan məhsullar arasında qızıl ilk üçlükdə qərarlaşmışdır. Həm hasilat həcminin, həm də dünya bazarlarında qızılın qiymətinin artması fonunda "AzerGold" QSC-nin ixrac əməliyyatlarından ölkə iqtisadiyyatına cəlb etdiyi valyutanın həcmində də artım qeydə alınmışdır. Cari ilin yanvar ayından sentyabr ayınadək "AzerGold" tərəfindən icra edilən ixrac əməliyyatları nəticəsində ölkə iqtisadiyyatına 68.5 milyon ABŞ dolları (116.4 milyon manat) məbləğində vəsait cəlb edilmişdir.

Cari ilin 8 ayında qızıl və gümüş ixracından əldə edilən gəlir ötən ilin analoji dövrü ilə müqayisədə 32 faiz, yaxud 16 milyon ABŞ dolları (28 milyon manat) çoxdur. Həmin dövr ərzində cəmiyyət tərəfindən dövlət büdcəsinə 6 milyon manatdan çox vəsait ödənilib. Bu vəsaitin 4.8 milyon manatı vergilərin, 1.2 milyon manatı isə Dövlət Sosial Müdafiə Fonduna edilən ödənişlərin payına düşür. Ümumilikdə isə, QSC-nin bütün fəaliyyət dövrü ərzində dövlət büdcəsinə 36,7 milyon manat vergi şəklində ödənilib. Bu vəsaitin 31,6 milyon manatı vergilərin, 5,1 milyon manatı Dövlət Sosial Müdafiə Fonduna edilən ödənişlərin payına düşür.

Sadalanan iqtisadi nəticələr istismarı edilən yalnız bir - "Çovdar" qızıl yatağında həyata keçirilən fəaliyyət sayəsində əldə olunub. Hazırda yeni yataqların istismara hazırlanması istiqamətində də intensiv işlər davam etdirilir. Təbii ki, bu sahədə işlərin icrasına kifayət qədər böyük maliyyə vəsaiti tələb olunur. Yeni yataqların işlənməsi, eləcə də əldə olunan müsbət iqtisadi artım göstəricilərinin daha yüksək dinamika ilə davamlılığının təmin edilməsi üçün cəmiyyət tərəfindən kapital qoyuluşu həyata keçirilməkdədir."AzerGold" QSC mənfəətlə çalışan dövlət şirkəti olaraq yeni layihələrə sərmayə qoyuluşunu təkcə əldə etdiyi gəlirlər (məlumat üçün, cəmiyyətin ötənilki fəaliyyəti nəticəsində əldə edilmiş 21 milyon manat həcmində xalis mənfəətin 15 milyonu Nizamnamə kapitalına yönəldilməsi qərara alınmışdır) və dövlət hesabına deyil, həm də alternativ maliyyə mənbələrinin hesabına həyata keçirməyi qarşıya məqsəd qoyub. Bu xüsusda qeyd olunan maliyyə mənbələrinin sırasına istiqrazların emissiyası da daxildir.

Belə ki, cəmiyyət tərəfindən yaxın gələcəkdə Bakı Fond Birjası vasitəsilə ilk dəfə olaraq istiqrazların tədavülə buraxılması planlaşdırılır. Planlaşdırılan qiymətli kağızların emissiyası təkcə "AzerGold"un investisiya portfelinin şaxələndirilməsi deyil, eləcə də vətəndaşlar üçün mənfəətli investisiya imkanları yaratmaq məqsədi daşıyır.

İstiqrazların emissiyasından cəlb ediləcək vəsaitin isə "Çovdar" (Daşkəsən), "Köhnəmədən" (Balakən) və "Qaradağ" (Şəmkir-Gədəbəy) layihələri üzrə yeni yataqların resurslarının artırılmasına, yataqların yerüstü hissəsində istismar işlərinin sürətləndirilməsinə və çöl tədqiqat işlərinin maliyyələşdirilməsinə yönəldilməsi nəzərə tutulub. Adıçəkilən layihələrin istismarı yerləşdiyi bölgədə sosial-iqtisadi inkişafa töhfə verməklə yanaşı, ölkə iqtisadiyyatına milyardlarla vəsaitin cəlb edilməsinə imkan yaradacaq.

Qeyd edək ki, cəmiyyətin fəaliyyətinin nəticələrinin yüksək mənfəətliliklə müşayiət olunması tədavülə buraxılacaq qiymətli kağızların daha etibarlı və dayanıqlı olmasına təminat verir. Yeni istiqrazlar "AzerGold"un uzunmüddətli inkişafında pay sahibi olmaqla yanaşı, qiymətli kağızlar bazarının daha da inkişaf etməsinə təkan verəcək.

# "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 - "BTR" MMC tərəfindən EATS-lərdə istifadə etmək üçün dizel generatorların açıq tender üsulu ilə satın alınması (2020-ci il üçün).**

**LOT 2 - "BTR" MMC-nin xidməti ərazisində olan EATS-lərdə qəza və yeni quraşdırmada istifadə üçün mal-materialların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 - 500 (beş yüz) manat (ƏDV daxil)**
**LOT 2 - 300 (üç yüz) manat (ƏDV daxil)**

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" Portalı vasitəsilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**B/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **30 sentyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **08 oktyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **09 oktyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

***Tender komissiyası***

# Lənkəran Dövlət Universiteti 2 saylı tədris korpusunun həyətində 5 mərtəbəli yeni tədris korpusunun layihə-smeta sənədlərinin hazırlanması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər bağlı zərfdə möhürlənmiş şəkildə 14.09.2020-ci il saat 17:30-dək aşağıdakı ünvana təqdim olunmalıdır.

Ünvan: Lənkəran şəhəri, Həzi Aslanov, 50.

***Tender komissiyası***

# "Azərbaycan İnvestisiya Şirkəti" ASC Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun hazırlanmış 2019-2020-ci illər üçün vergi bəyannamələrinin auditi xidmətinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şirkətlər (+994 12) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 15.09.2020-ci il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin məlumatı

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının vətəndaşı 1980-ci il təvəllüdlü İsayev Elvin İltixam oğlu Ukrayna miqrasiya qanunvericiliyinin tələblərini pozduğuna görə 2019-cu il dekabrın 12-də Azərbaycana deportasiya olunmuş və Baş Prokurorluğun İstintaq idarəsində istintaq edilən cinayət işi üzrə barəsində Nəsimi Rayon Məhkəməsinin 2019-cu il 22 avqust tarixli qərarı əsasında seçilmiş həbs qətimkan tədbirinin icrası ilə əlaqədar 2019-cu il dekabrın 14-də Penitensiar Xidmətin 1 saylı istintaq təcridxanasına yerləşdirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası ərazisində kütləvi iğtişaşlara və dövlət əleyhinə yönələn açıq çağırışlar etməsi faktları üzrə 2019-cu il 15 avqust tarixdə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxs Elvin İsayevin müdafiə hüququ cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq qaydada tam təmin edilib.

İstintaqla müəyyən edilib ki, Elvin İsayev 2018-ci ilin əvvəllərində Azərbaycan Respublikasının vətəndaşları olmaqla hazırda Avropanın müxtəlif ölkələrində müvəqqəti məskunlaşmış Orduxan Bəbirov, Qurban Məmmədov, Orxan Ağayev, Rəfael Piriyev, Əli Həsənəliyev, Tural Sadıqlı, Süleyman Süleymanlı və şəxsiyyətləri istintaqa məlum olmayan digər şəxslərlə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşərək Azərbaycan Respublikasını tərk etdikdən sonra, müvəqqəti məskunlaşdığı Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində özünə məxsus hesablar vasitəsilə "YouTube" və "Facebook" sosial şəbəkələrində Azərbaycan dilində yerləşdirdiyi video müraciətlərində, yayımladığı video görüntülərdə və paylaşımlarda hakimiyyətin zorla ələ keçirilməsi və zorla saxlanılmasına, habelə ölkəmizin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ərazi bütövlüyünün parçalanmasına yönələn ifadələr işlətməklə Azərbaycan Respublikası vətəndaşlarına müraciət edərək hakimiyyət nümayəndələrinin qanuni tələblərinə fəal itaətsizlik və müqavimət göstərilməklə kütləvi iğtişaşlar və zorakılıqlar etməyə açıq çağırışlar edib.

Qeyd olunanlara əsasən Elvin İsayev Cinayət Məcəlləsinin 12.1, 34.2, 220.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə) və 12.1, 34.2, 281.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar dövlət əleyhinə yönələn açıq çağırışlar etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılmaqla baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Eyni zamanda, Elvin İsayevin qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əməllərində iştirak etmiş Orduxan Bəbirov, Qurban Məmmədov, Orxan Ağayev, Rəfael Piriyev, Əli Həsənəliyev, Tural Sadıqlı və Süleyman Süleymanlı barəsində Cinayət Məcəlləsinin 12.1, 34.2, 220.2 və 12.1, 34.2, 281.2-ci maddələri ilə ayrıca icraata ayrılmış cinayət işi üzrə həmin şəxslər təqsirləndirilən şəxs qismində cəlb ediliblər, Baş Prokurorluğun təqdimatı əsasında Nəsimi Rayon Məhkəməsinin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.

İstintaq idarəsi tərəfindən qeyd edilən şəxslər barəsində beynəlxalq axtarışın elan edilməsinə dair müvafiq qərarlar qəbul edilməklə, icra edilməsi üçün Daxili İşlər Nazirliyinə, Dövlət Təhlükəsizlik Xidmətinə, həmçinin "İnterpol"un Milli Mərkəzi Bürosuna göndərilib.

Prokurorluq orqanları tərəfindən qeyd edilən şəxslərin konkret olaraq olduğu yerlər müəyyən edilməklə qanunvericiliyin və müvafiq beynəlxalq Konvensiyaların tələblərinə uyğun olaraq Azərbaycan Respublikasına ekstradisiya edilmələri və məhkəmə məsuliyyətinə verilmələri üçün mümkün olan bütün tədbirlərin həyata keçirilməsi təmin ediləcək.

Hazırda həmin cinayət işi üzrə intensiv istintaq tədbirləri davam etdirilir.

# Özünü məktəb binasının üçüncü mərtəbəsindən ataraq intihara cəhd edən şagirdlə bağlı cinayət işi başlanıb

Sentyabrın 7-də saat 09 radələrində Bakı şəhəri Binəqədi rayonu 313 nömrəli tam orta məktəbin 9-cu (b) sinif şagirdi Solmaz Hacıyevanın məktəbin 3-cü mərtəbəsində yerləşən otaqlardan birinin pəncərəsindən özünü yerə ataraq intihara cəhd etməsi faktı ilə bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iş üzrə müvafiq ekspertizalar təyin edilib, şahidlərin dairəsi müəyyənləşdirilərək dindirilib, digər təxirəsalınmaz hərəkətlər yerinə yetirilib. Hazırda Solmaz Hacıyevanın stasionar şəraitdə səmərəli müalicəsi üçün zəruri tədbirlər görülür.

Təhsil Nazirliyi ilə əlaqəli şəkildə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılmasını təmin etmək məqsədilə peşəkar mütəxəssislər cəlb edilməklə intensiv istintaq tədbirləri həyata keçirilir.

Bu barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

Təkrar

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi

### *açıq tenderə dəvət edir*

Özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə respublikanın şəhər və rayonları üzrə əhalinin özünüməşğulluğunun təmin olunması ilə bağlı tələb olunan aktivlərin (inventar, maşın və avadanlıqların) satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqə nömrəsi: (012) 497-71-34) ünvanından ala bilərlər.

**İştirak haqqı: 500 ( beş yüz) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**

**Büdcə gəlirlərinin təsnifat kodu: 142330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **01 oktyabr 2020-ci il saat 15:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **09 oktyabr 2020-ci il saat 15:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **12 oktyabr 2020-ci il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: Jezlların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş"lə ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

Ünvan: Bakı şəhəri, Xırdalan, Binəqədi şosesi, 4

İştirak haqqı: 300 AZN

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat VÖEN: 9900063851**
**Hesab: AZ45CT00000000000002078506**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ 22**
**Büdcə təsnifat kodu: 142330**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *nizamnamə (notariusda təsdiq olunması zəruridir);*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitlər;*
- *tender təklifi (təklif zərfləri açıldıqdan sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflər açıldıqdan sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *satınalma müqaviləsinin qiyməti 100 000 ABŞ dollarının manat ekvivalentindən çox olduğu təqdirdə 5 %, az olduğu təqdirdə isə satınalma müqaviləsi ilə bağlı həmin müqavilənin yerinə yetirilməsinin təminatı tələb olunmur.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 28.09.2020-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə 06.10.2020-ci il saat 17:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 07.10.2020-ci il saat 17:00-da elektron Portal vasitəsilə açılacaqdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri): Əvəz Mahir oğlu Məmmədzadə BDYPİ-nin inspektoru, tel: 012 590-81-60

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: Qazanalizatorların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş"lə ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

Ünvan: Bakı şəhəri, Xırdalan, Binəqədi şosesi, 4

İştirak haqqı: 400 AZN

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat VÖEN: 9900063851**
**Hesab: AZ45CT00000000000002078506**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ 22**
**Büdcə təsnifat kodu: 142330**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *nizamnamə (notariusda təsdiq olunması zəruridir);*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitlər;*
- *tender təklifi (təklif zərfləri açıldıqdan sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflər açıldıqdan sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *satınalma müqaviləsinin qiyməti 100 000 ABŞ dollarının manat ekvivalentindən çox olduğu təqdirdə 5 %, az olduğu təqdirdə isə satınalma müqaviləsi ilə bağlı həmin müqavilənin yerinə yetirilməsinin təminatı tələb olunmur.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 28.09.2020-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə 06.10.2020-ci il saat 17:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 07.10.2020-ci il saat 17:00-da elektron Portal vasitəsilə açılacaqdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri): Əvəz Mahir oğlu Məmmədzadə BDYPİ-nin inspektoru, tel: 012 590-81-60

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi yol hərəkətinin təhlükəsizliyi sahəsində mütəxəssis hazırlığı məqsədilə kurslara cəlb edilmiş dinləyicilərlə xarici dil, ünsiyyət və etika, psixoloji hazırlıq, kompüter biliklərinin əsasları və nəqliyyat vasitələrinin ekstremal idarəedilməsi fənləri üzrə tədris və təlim prosesinin həyata keçirilməsini kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 590-81-60 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 10.09.2020-ci il saat 10:00-dək qəbul olunur.
Ünvan: Xırdalan, Binəqədi şosesi, 4
Telefon: +99412 590-81-60
E-mail: **itts703@rambler.ru**

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

### *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: Birdəfəlik narkotester (7 növ) müştükləri, "DRUG Test 5000" narkotik vasitələrin analizi cihazının ( 5 növ) müştükləri, alkotester müştüklərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş"lə ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

Ünvan: Bakı şəhəri, Xırdalan, Binəqədi şosesi, 4

İştirak haqqı: 300 AZN

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat VÖEN: 9900063851**
**Hesab: AZ45CT00000000000002078506**
**VÖEN: 1401555071**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ 22**
**Büdcə təsnifat kodu: 142330**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *nizamnamə (notariusda təsdiq olunması zəruridir);*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitlər;*
- *tender təklifi (təklif zərfləri açıldıqdan sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflər açıldıqdan sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *satınalma müqaviləsinin qiyməti 100 000 ABŞ dollarının manat ekvivalentindən çox olduğu təqdirdə 5 %, az olduğu təqdirdə isə satınalma müqaviləsi ilə bağlı həmin müqavilənin yerinə yetirilməsinin təminatı tələb olunmur.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 28.09.2020-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə 06.10.2020-ci il saat 17:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 07.10.2020-ci il saat 17:00-da elektron Portal vasitəsilə açılacaqdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri): Əvəz Mahir oğlu Məmmədzadə BDYPİ-nin inspektoru, tel: 012 590-81-60

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Aztelekom" MMC tərəfindən 18 avqust 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc olunmuş **"2021-ci ilin sonunadək vəkil xidmətlərinin satın alınması"** prosedurunun vaxtı aşağıda göstərilən müddətlərə qədər uzadılır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 18 sentyabr 2020-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 28 sentyabr 2020-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 29 sentyabr 2020-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

1984-cü ildə Yasamal rayonu C.Cabbarlı adına 161 saylı orta məktəbdən Elçin Muxtar oğlu Həsənovun adına verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin kollektivi general-mayor Elşad Həmidova əzizi

**ƏLİ İSMAYIL OĞLU ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Təhsil, elm, mədəniyyət, gənclər və idman sahələrinin maliyyəsi şöbəsinin müdir müavini Zakir Hacıyevə atası

**YUSİF MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi nazirliyin Təhsil, elm, mədəniyyət, gənclər və idman sahələrinin maliyyəsi şöbəsinin müdir müavini Zakir Hacıyevə atası

**YUSİF HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin İnvestisiya İdarəsinin rəisi Cəmil Rüstəmxanlıya əzizi

**GÜNDÜZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Aqrarkredit" QSC-nin İdarə Heyətinin üzvü, Hüquq departamentinin direktoru Vilayət Abdullayevə atası

**MƏCİD ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatından Bəxtiyar Ağayev ailəsi ilə birlikdə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Avtomobil Xidmətinin rəisi Həbib Həsənova atası

**NAMİQ HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7425
Sifariş 2108
Qiyməti 40 qəpik